# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

29 OKTYABR 2019-cu il

№ 191 (4089)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# PAŞİNYAN PENTAQONUN ERMƏNİSTANDA HƏRBİ SİRR OBYEKTİNİ RUSİYAYA AÇIR...

səh. 7

Qoşulmayan ölkələr platforması Xocalı genosidini tanıyan ölkələrin sayını dəfələrlə artıra bilər

səh. 5

Paşinyan bu dəfə də Moskvada Putinin qəbuluna düşə bilmədi...

səh. 11

Ermənistanda aprel sindromu dərinləşir

səh. 9

Azərbaycan Qoşulmayan ölkələrin tarixində Gənclər Şəbəkəsi dövrünü başladır...

səh. 4

Bağdadinin ölümü, Rusiyanın şübhələri, ABŞ-ın cəsədi dənizə tullamaq fikirləri...

səh. 11

İstefa şayiəsi yayanlara Elman Rüstəmovun cavabı - uçot dərəcəsini 7,75-ə endirdim...

səh. 13

Azərbaycanda müdhiş təhsil cinayətləri - rayonlarda əksər universitetlərin saxta möhürləri və saysız saxta diplomların saxlandığı anbarlar ələ keçirildi

səh. 14

Bakı Şəhər İcra Hakimiyyəti Hacıbala Abutalıbovun bir "böyük torpaq sərəncamını" ləğv etdi

səh. 2




səh. 4

## Azərbaycan dünyanın 120 ölkəsi ilə Ermənistanın ikitərəfli münasibətləri yaxşılaşdırmaq imkanını blokladı...



İlham Əliyevin Aşqabadda qaldırdığı «faşist erməni» probleminə qarşı Qoşulmayanların həmrəyliyi - təsadüfdürmü...

səh. 3



Kreml Paşinyanı daha sərt şəkildə əzməyə başlayır - ORSİS, Cənubi Qafqaz Dəmir Yolları məsələsi, qaz 200 dollar...

səh. 10

Azərbaycanın qarşısında manatı güclənməkdən «necə qoruyaq» problemi...

səh. 12

səh. 8

Əli Həsənov "teleqram kompromatlarını" elə həmin teleqramın məntiqi ilə də vurdu



səh. 3

Qoşulmayan ölkələr üçün yeni düşündürücü məlumat - ABŞ və Rusiya 200 ölkə arasında Azərbaycanı seçib...



səh. 6

Erməni lobbisi saxta "genosid" layihəsini Konqresə soxuşdurmaq üçün yeni fürsət tapıb - bəs Azərbaycan, Türkiyə?



səh. 6

Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb dəhlizləri və Qoşulmayan ölkələr üçün yeni fürsətlər...



səh. 15

Camaata nərə əvəzinə naqqa balığı yedizdirən restoranlara niyə cinayət işi açılmır?



# Prezident Əliyev Qəbələ və Ağdaşda infrastruktur obyektlərin açılışında - Qəbələyə üst-üstə 5 milyon manat ayırdı...

**Prezident İlham Əliyev oktyabrın 28-də Qəbələ rayonuna səfər edib. Prezident Qəbələ rayonuna səfəri çərçivəsində bir sıra istehsalat və infrastruktur obyektlərin açılışında iştirak edib.**

Baki-xeber.com dövlət başçısının saytına istinadən xəbər verir ki, Prezident Vəndam qəsəbəsində dekorativ gülçülük istixanası, Qəbələdə 110/35/10 kilovoltluq "Qəbələ" elektrik yarımstansiyası yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olub, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qəbələ filialının və Qəbələnin Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.

Prezident oktyabrın 28-də Ağdaş rayonuna da səfər edib. Prezident Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolunun açılış mərasimində, Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri stismara verilməsi mərasimində iştirak edib, ictimaiyyətin nümayəndələri ilə görüşüb.

Həmçinin Ağdaş Rayon Telekommunikasiya Qovşağında "Şəbəkə" Xidmət Mərkəzi istifadəyə verilib. Ağdaşda Biyan Sənaye Parkının da açılışı olub.

Prezident İlham Əliyev Qəbələ rayonunun yolnəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayaraq, iyirmi min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini rayon mərkəzindən və digər yaşayış məntəqələrindən ayıran, Bum-Tikanlı-Abrıx avtomobil yolunun 2-ci kilometrliyində Bum çayı üzərində yeni körpünün tikintisi və Bum qəsəbəsinə gedən 2 kilometrlik avtomobil yolunun bərpası üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 2 milyon manat ayırıb.

Prezident Qəbələ şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında da sərəncam imzalayıb.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində Qəbələ rayonunda bir sıra mühüm tədbirlər həyata keçirilib, sənaye məhsulunun həcmi 40,2 dəfə, əsas kapitala yönəldilmiş vəsait 92,1 dəfə, o cümlədən tikinti quraşdırma işləri 99,2 dəfə artıb, mühüm infrastruktur layihələri yerinə yetirilib, Beynəlxalq Hava Limanı, Müalicə Diaqnostika Mərkəzi, Olimpiya İdman Kompleksi, Heydər Əliyev Konqres Mərkəzi, Mədəniyyət Mərkəzi, "ASAN xidmət" mərkəzi inşa edilib, müasir turizm və mədəniyyət obyektləri istifadəyə verilib, 45 ümumtəhsil müəssisəsində təmir-tikinti işləri aparılıb. Bundan başqa, şəhərin su təchizatı sistemi, 110/35/10 kV-luq 2X40 MVA gücündə "Qəbələ" yarımstansiyası yenidən qurulub, Qəbələ Dekorativ Qızılgüllər İstixanası, xalçaçılıq və digər iri istehsal və emal müəssisələri yaradılıb, 16 mindən çox yeni iş yeri açılıb, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılıb, genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb.



Sərəncamda qeyd edilir ki, Qəbələ şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 48 mənzilli yaşayış binasının tikintisi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qəbələ Rayon İcra Hakimiyyətinə 3 milyon manat ayrılsın.



## Azərbaycan və ABŞ müdafiə nazirləri Brüsseldə hərbi əməkdaşlığın perspektivlərini müzakirə edib

**NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasına töhfə verən dövlətlərin müdafiə nazirləri səviyyəsində Brüssel şəhərində keçirilmiş toplantı çərçivəsində ABŞ tərəfinin təşəbbüsü ilə ABŞ Müdafiə naziri Mark Esperlə Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov arasında görüş keçirilib.**

Müdafiə Nazirliyindən baki-xeber.com-a verilən məlumata görə, tərəflər Azərbaycanla ABŞ arasında ikitərəfli və NATO çərçivəsində hərbi əlaqələrin inkişaf perspektivlərini, o cümlədən hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın daha da genişləndirilməsini, eləcə də regional və qlobal təhlükəsizlik məsələlərini müzakirə edib.

Görüşdə, həmçinin, sülhməramlılarımızın NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasında iştirakı barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Bakı Şəhər İcra Hakimiyyəti Hacıbala Abutalıbovun bir "böyük torpaq sərəncamını" ləğv etdi

*Zəbt olunmuş ərazi 54 nömrəli tam orta məktəbin özünə qaytarıldı*

**Bir neçə gün əvvəl müxtəlif kütləvi informasiya vasitələrində Nəsimi rayonundakı Abdulla Şaiq adına 54 nömrəli tam orta məktəbə yaxın ərazidə yüksək mərtəbəli yaşayış binasının tikintisinin aparılması ilə bağlı məlumat yayılıb.**

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətindən "Bakı Xəbər"ə verilən məlumata görə, məsələ ilə bağlı Azərbaycan Respublikasının Təhsil Nazirliyi müvafiq tədbirlər görülməsi üçün Bakı Şəhər İcra Hakimiyyətinə məktubla müraciət edib. Bununla əlaqədar olaraq dərhal Bakı Şəhər İcra Hakimiyyəti və Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin məsul nümayəndələrindən ibarət Komissiya yaradılıb və Komissiya üzvləri həmin məktəbdə olaraq məsələ üzrə ətraflı araşdırma aparıblar.



Müəyyən edilib ki, Nəsimi rayonu, Asif Məhərrəmov küçəsində yerləşən torpaq sahəsi 2008-ci ildə Bakı Metropoliteninə verilib, sonradan isə həmin ərazi vətəndaş Azər Əkbərov və Asif Əsədova çoxmərtəbəli yaşayış binasının tikintisinin layihələndirilməsi məqsədilə ayrılıb.

Araşdırma zamanı məlum olub ki, hər iki halda ərazinin ayrılması Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin və digər aidiyyəti tərəflərin rəyi alınmadan həyata keçirilib. Bunu, tikinti işlərinin məktəbə çox yaxın yerdə aparıldığını və ictimai maraqlar əsas tutularaq, Nəsimi rayonu, Asif Məhərrəmov küçəsi 40 ünvanında çoxmərtəbəli yaşayış binasının tikintisinin layihələndirilməsi məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin keçmiş rəhbərliyi tərəfindən verilmiş Sərəncam ləğv edilib.

Hazırda Bakı Şəhər İcra Hakimiyyətində Təhsil Nazirliyinin müraciəti nəzərə alınaraq sözügedən torpaq sahəsinin məktəbə verilməsi məsələsinə baxılır.

# Bolqarıstanın xarici işlər naziri Qarabağla bağlı bəyanat verdi

**Qarabağ münaqişəsi ATƏT Minsk Qrupunun himayəsi altında həll olunmalıdır. "Trend"in məlumatına görə, bunu Bolqarıstanın xarici işlər naziri Yekaterina Zaxariyeva deyib.**

Bolqarıstanın Azərbaycan qazını satın alması və Qarabağ münaqişəsi ilə bağlı mövqeyi barədə sualı cavablandıran nazir bildirib ki, bu vacib proqramdır: "Regionda sabitlik, rifah və dondurulmuş münaqişələrin nizamlanması Aİ üçün prioritetdir. Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının yeganə yolu ATƏT Minsk Qrupunun himayəsi altında dinc dialoqdur. Regionda dondurulmuş münaqişələr çoxdur. Onları danışıqlar yolu ilə həll etmək lazımdır ki, iqtisadi inkişafa mane olmasın. Bizim Cənubi Qafqaza xüsusi yanaşmamız mövcuddur".

**Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv dövlətlərin XVIII Zirvə görüşündə beynəlxalq əhəmiyyətli bir sıra ciddi məsələlər gündəmə gətirildi və müzakirə edildi. Zirvə görüşündə yekun sənəd qəbul edildi və bu sənəddə dünya insanını narahat edən bir sıra mühüm məsələlər öz əksini tapdı.**



# İlham Əliyevin Aşqabadda qaldırdığı "faşist erməni" probleminə qarşı Qoşulmayanların həmrəyliyi - təsadüfdürmü...

***Vaqif Abışov:** "Qoşulmama Hərəkatına üzv dövlətlər, faktiki olaraq, Ermənistanın faşizmə meyl göstərməsini, burada nasistlərə abidə qoyulmasını pislədi və Azərbaycanla həmrəy olduqlarını ifadə etdilər"*

Qoşulmama Hərəkatına üzv dövlətlərin XVIII Zirvə görüşündə qəbul edilən yekun sənəddə faşizm, nasizm əleyhinə də diqqətçəkən fikirlər yer alıb.

Yekunda qəbul olunmuş Bakı Bəyannaməsində dövlət və hökumət başçıları nasist hərəkatının, neonasizmin və "Vaffen SS" təşkilatının keçmiş üzvlərinin, onlara abidə və heykəllərin ucaldılması, nasist keçmişi, nasist hərəkatı və neonasizmin qəhrəmanlaşdırılması naminə ictimai nümayişlərin keçirilməsi, eləcə də anti-Hitler koalisiyasına qarşı döyüşmüş və nasist hərəkatının iştirakçıları ilə işbirliyi etmiş şəxslərin milli azadlıq hərəkatının iştirakçıları kimi qələmə verilməsi daxil olmaqla, hər hansı bir formada qəhrəmanlaşdırılmasını qınayıblar. Onu da vurğulayaq ki, bu, Azərbaycan Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilmiş Sammitində Ermənistanda Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə bağlı səsləndirdiyi fikirlərə beynəlxalq səviyyədə verilən dəstəyin göstəricisidir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, Qoşulmama Hərəkatına üzv dövlətlərin XVIII Zirvə görüşündə yekun sənəd olaraq Bakı Bəyannaməsinin qəbul edilməsi və bura da bütün dünyanı ciddi narahat edən məsələlərin əks olunması Azərbaycan dövlətinin qələbəsidir. V.Abışovun qeyd etdiyinə görə, bir neçə həftə əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin Aşqabadda keçirilən MDB Dövlət Başçıları Şurasının Sammitində Ermənistanda nasistlərə, Hitler əlaltılarına heykəl qoyulması, onların adlarının əbədiləşdirilməsi, xalq qəhrəmanı kimi təqdim edilməsi ilə bağlı kəskin fikirlər səsləndirməsi faşizm təhlükəsi haqqında dünyaya bir mesaj oldu. Qoşulmama Hərəkatına üzv dövlətlərin bu məsələdə Azərbaycan Prezidenti ilə həmrəy olduğunu deyən V.Abışov hesab edir ki, Bakı Bəyannaməsində də bu faktın yer alması təsadüfi deyil. "Dünyanın 120-dən artıq dövlətinin təmsil olunduğu Qoşulmama Hərəkatının növbəti Zirvə görüşünün Bakıda keçirilməsi müsbət hadisə idi. Belə bir mötəbər tədbirdə Bakı Bəyannaməsinin qəbul edildi və orada bütün bəşəriyyət üçün təhlükəli olan faşizm, nasizmlə bağlı tənqidi fikirlər yer aldı. Qoşulmama Hərəkatına üzv dövlətlər, faktiki olaraq, Ermənistanın faşizmə meyl göstərməsini, burada nasistlərə abidə qoyulmasını pislədi və Azərbaycanla həmrəy olduqlarını ifadə etdilər. Ermənistan faşizmi açıq şəkildə müdafiə edir. Əlbəttə, bu amil də Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən kəskin şəkildə pislənir. Bakı Bəyannaməsində faşizmi, nasizmi müdafiə edən dövlətlərin, xüsusi olaraq da Ermənistanın bu fəaliyyətinin pislənilməsi təsadüfi deyil. Bu həm də Azərbaycana həmin dövlətlərin yaxından dəstək göstərməsinin, bu məsələdə bizimlə həmrəy olduqlarının təzühürüdür. Qoşulmama Hərəkatına üzv dövlətlərin təmsilçilərinin Bakı Bəyannaməsində bu məsələni kəskin tənqid etməsi və faşizmi müdafiə edən dövlətlərə qarşı etiraz bildirməsi Azərbaycan dövlətinin həyata keçirdiyi uğurlu xarici siyasətin nəticəsidir".

*"Azərbaycan bu dəstəkdən istifadə edərək beynəlxalq səviyyədə Ermənistana qarşı təzyiqi daha da gücləndirməlidir"*

V.Abışov hesab edir ki, Bakı Bəyannaməsində Ermənistan əleyhinə qəbul edilən hər bir məsələ müsbətdir. Onun sözlərinə görə, Qoşulmama Hərəkatına üzv dövlətlərin bir çoxu hətta Ermənistanın harada yerləşdiyini bilmir. V.Abışovun bildirdiyinə görə, Azərbaycan əlindəki vasitələrdən və Qoşulmama Hərəkatına üzv dövlətlərin dəstəyindən istifadə edərək Ermənistana qarşı daha kəskin işlər görməli, Ermənistanın faşizmi müdafiə etməsi məsələsini Avropa Şurasının, BMT-nin və digər beynəlxalq qurumların tədbirlərində də qaldırmalıdır. "Bu gün Azərbaycanın dünyada güclü dəstəyi var və Qoşulmama Hərəkatına üzv dövlətlər də bizə bu məsələdə ciddi dəstək verir. Azərbaycan bu dəstəkdən istifadə edərək beynəlxalq səviyyədə Ermənistana qarşı təzyiqi daha da gücləndirməlidir. Çünki artıq dünya dövlətləri Ermənistanın hansı mövqe tutduğunu bilir" - deyə V.Abışov qeyd etdi.

***İradə SARIYEVA***

**"Azərbaycan müstəqil xarici siyasət yeridir. Bu siyasət milli maraqlara, ədalətə əsaslanır və bizə çoxlu dostlar qazandırmışdır". Bunu Prezident İlham Əliyev Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşündə çıxışı zamanı deyib.**



# Qoşulmayan ölkələr üçün yeni düşündürücü məlumat - ABŞ və Rusiya 200 ölkə arasında Azərbaycanı seçib...

***Elçin Mirzəbəyli:** "Belə bir etimadın ölkəmizə göstərilməsi Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolu ilə bağlıdır"*

Dövlət başçısı vurğulayıb ki, 2011-ci ildə Azərbaycanın 155 dövlətin dəstəyilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi buna bariz nümunədir: "Təhlükəsizlik Şurasına üzvlük müddətində Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə mühüm töhfələr vermiş və beynəlxalq siyasi proseslərin fəal iştirakçısına çevrilmişdir.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının mandatı əsasında təsis edilmiş beynəlxalq sülhməramlı əməliyyatlara da öz töhfəsini verir. Ölkəmiz Rusiya-NATO, Rusiya-ABŞ yüksək hərbi rəhbərliyinin mütəmadi olaraq keçirilən görüşlərinə evsahibliyi edir. Dünyada 200-ə qədər ölkə vardır. Bu ölkələr arasında qeyd etdiyim görüşlər üçün Azərbaycanın seçilməsi bizim yürütdüyümüz müstəqil xarici siyasətə olan hörmətin göstəricisidir".

Həqiqətən də Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəstxətti, dövlətçilik siması, inkişaf yolu var. Ölkəmiz bir çox aparıcı dünya dövlətinin onilliklər boyu keçdiyi təkamül və inkişaf mərhələlərini qısa zaman kəsiyində qət edə bilib. Azərbaycanın müstəqil siyasət yeritməsinin nəticəsidir ki, o cür mühüm görüşlər məhz Bakıda keçirilir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, Azərbaycanın müstəqil siyasət yeritməsi ölkəmizin önəmini artırır: "Bunun nəticəsidir ki, bir çox önəmli görüşlər Bakıda keçirilir. Azərbaycanda dünyada baş verən qlobal proseslərin həlli ilə bağlı həm humanitar, həm də hərbi-siyasi müstəvidə görüşlər keçirilir. Bu səbəbdən dünyanın aparıcı güc mərkəzlərinin görüşləri Bakıda keçirilir. Belə bir etimadın ölkəmizə göstərilməsi Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolu ilə bağlıdır. Bu həm də ölkəmizin çoxvektorlu xarici siyasət yürütməsi ilə bağlıdır. Ən başlıcası isə ölkə başçısının müstəqil dövlət siyasəti yürütməsi ilə bağlıdır. Burada xüsusi olaraq Prezident İlham Əliyevin şəxsi nüfuzunu da qeyd etmək lazımdır. Hesab edirəm ki, bu amil proseslərdə çox önəmli yerə malikdir. Düşünürəm ki, Azərbaycana olan bu münasibət, o cümlədən, ölkəmizin Qoşulmama Hərəkatına 3 il sədr seçilməsi və Azərbaycanın ərazi bütövlüyünün 120 dövlət tərəfindən müdafiə olunması ciddi hadisədir. Bu, ilk növbədə, Prezident İlham Əliyevin və təbii ki, onun şəxsində dövlətimizin uğurudur".

*"Bu, ilk növbədə, Prezident İlham Əliyevin və təbii ki, onun şəxsində dövlətimizin uğurudur"*

***Vidadi ORDAHALLI***

# Azərbaycan dünyanın 120 ölkəsi ilə Ermənistanın ikitərəfli münasibətləri yaxşılaşdırmaq imkanını blokladı...

**Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşü Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini daha da gücləndirdi. Qəbul edilmiş sənədlərdə dövlət və hökumət başçıları münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirir və onun Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasının vacibliyini vurğulayırlar.**

***Elşən Həsənov:*** *"Ermənistanın düşdüyü bu vəziyyətdən çıxması üçün yeganə yolu Azərbaycanın ərazi bütövlüyünə hörmət etmək və işğaldan əl çəkməkdən keçir"*




Yekun Sənədə ilk dəfə olaraq çox mühüm yeni bənd daxil edildi. Bu bənddə dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini vurğulayır və təsdiq edirlər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq, bu ərazilərdə iqtisadi fəaliyyətlər də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcək. Burada bilavasitə işğalçı ifadəsindən istifadə olunur. Bu, Ermənistanın növbəti dəfə 120 dünya dövləti tərəfindən işğalçı kimi tanınması deməkdir.

Yekunda qəbul olunmuş Bakı Bəyannaməsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi səylərinə ciddi dəstək ifadə olunub: "Biz, dövlət və hökumət başçıları Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə möhkəm dəstəyimizi ifadə edirik və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi ilə bağlı səyləri ilə həmrəyliyimizi ifadə edirik".

Ermənistan və onun havadarlarının dəridən-qabıqdan çıxmasına baxmayaraq, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük diplomatik uğura imza atdı, 120 dövlətin təmsil olunduğu Zirvə görüşünün nəticəsində Ermənistanın işğalçı dövlət kimi ifşa edilməsinə nail oldu.

Azərbaycanın yürütdüyü düzgün diplomatik kurs nəticəsində Ermənistana vurulan bu zərbə onlar üçün hansı fəsadlara səbəb ola bilər? Bu sənədin qəbulu onu deməyə əsas verirmi ki, Ermənistan daha 120 ölkə ilə münasibətlərini yaxşılaşdırmaq imkanları bloklandı?

**Azərbyacan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, qəbul edilən sənədi çox böyük diplomatik qələbə saymaq olar:** "Bunun həm də sədrliyin Azərbaycana keçdiyi dönəmdə baş verməsi olduqca əhəmiyyətlidir. Azərbaycan quruma sədrlik edən ölkə olaraq qəbul edilmiş yekun sənədin icrasına nəzarət edəcək, onu daim gündəmdə saxlamaq imkanına malik olacaq. Ermənistanın və onun havadarlarının Azərbaycanın imicini dünya ictimaiyyətinin gözündə ləkələmək üçün hər cür səy göstərməsinə baxmayaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük diplomatik uğurlara imza atıb. Qoşulmama Hərəkatının Zirvə görüşü 4 sənədin qəbulu ilə yekunlaşdı. Yekun Bakı Bəyannaməsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi səylərinə ciddi dəstək ifadə olunub. Zirvə görüşündə iştirak edən ölkələr Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə möhkəm dəstəklərini və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi üzrə səyləri ilə həmrəyliklərini ifadə ediblər. Bu isə Ermənistanın 120 ölkə tərəfindən işğalçı dövlət kimi tanınması deməkdir. Azərbaycan Respublikası 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək. Bu, az müddət deyil. Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşünə, ümumilikdə, 60-a yaxın ölkənin dövlət və hökumət başçısı, həmçinin, beynəlxalq təşkilatların rəhbərləri qatılıb. Bunun özü Qarabağ həqiqətlərinin əyani şəkildə geniş bir elitar auditoriyaya çatdırılması anlamına gəlir. Qurumda dünyanın çox nüfuzlu ölkələri təmsil olunurlar. Belə korrekt bir sənədin qəbulu o anlama gəlir ki, onsuz da diplomatik səyləri tam fiaskoya uğrayan Ermənistan üçün daha bir baryer yarandı. Təbii ki, Ermənistanın həmin ölkələrlə normal diplomatik əlaqələr qurması çətinləşəcək. Çünki qarşı tərəfin onları işğalçı kimi tanıyan imzası var".

Ekspertin fikirincə, bu bir daha Ermənistanın işğalçı mahiyyətini ifşa etdi: **"Bununla Qoşulmama Hərəkatı həm də öz təməl prinsiplərinə sadiq qalmış oldu. Bu, eyni zamanda, beynəlxalq ictimaiyyətin Azərbaycanın haqq səsinə verdiyi önəmin göstəricisidir. Bu bir daha göstərir ki, Ermənistan bir işğalçı ölkə kimi get-gedə küncə sıxışdırılır. Ermənistanın düşdüyü bu vəziyyətdən çıxması üçün yeganə yolu Azərbaycanın ərazi bütövlüyünə hörmət etmək və işğaldan əl çəkməkdən keçir".**

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan Qoşulmayan ölkələrin tarixində Gənclər Şəbəkəsi dövrünü başladır...

**Bu gün Azərbaycan dövləti bəşəriyyət üçün gərəkli olan bir sıra yeniliklərlə beynəlxalq aləmin diqqətini çəkir. Müxtəlif yeni ideya və təkliflərlə çıxış edən Azərbaycanın bu ideya və təklifləri başqa dövlətlər tərəfindən də qəbul edilir, maraqla qarşılanır.**




***Kənan Qubadzadə:*** *"Gənclər Şəbəkəsinin yaradılmasında məqsəd Qoşulmama Hərəkatına üzv dövlətlərin gənclərin ictimai-siyasi həyatda rolunu təmin etməkdir"*

Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə toplantısı zamanı Bakıda bir sıra maraqlı qərarlar qəbul edildi. Bakı Sammitində Qoşulmama Hərəkatına üzv dövlətlərin tarixində əhəmiyyətli rol oynayan yeniliklər yaşandı. Önə çəkilən məsələlərdən biri isə gənclərlə bağlı oldu.

Azərbaycanın sədrliyi dövründə ən çox diqqət ediləcək prioritet sahələrdən biri gənclərin sələhiyyətlərinin artırılması vurğulandı. Azərbaycanın uğurlu gənclər siyasəti həyata keçirdiyi məlumdur. Cəmiyyətin davamlı inkişafının təmin olunmasında gənclərin mühüm rol oynadığı şübhəsizdir.

Zirvə toplantısı çərçivəsində Qoşulmama Hərəkatına üzv dövlətlərin Gənclər Sammiti keçirildi. Eyni zamanda da Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi yaradıldı. Bunu isə Qoşulmama Hərəkatının bütün fəaliyyətinə gənclərin dəstək verməsi kimi qiymətləndirmək olar.

Gənclər Mərkəzi İctimai Birliyinin icraçı direktoru Kənan Qubadzadə "Bakı-Xəbər"ə bildirdi ki, Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin yaradılması mühüm əhəmiyyət kəsb edir. K.Qubadzadənin sözlərinə görə, əsası Azərbaycanda, Bakıda qoyulan Gənclər Şəbəkəsinin fəaliyyəti çox geniş olacaq. "Gənclər Şəbəkəsinin yaradılmasının çox mühüm əhəmiyyəti var. Qoşulmama Hərəkatının Zirvə toplantısında belə mühüm bir məsələnin reallaşdırılması müsbət haldır. Bu şəbəkənin yaradılmasında mühüm məsələ gənclərin dövlət idarəçiliyində iştirakının artırılması, onların sosial, təhsil və məşğulluq problemlərinin həll edilməsidir. Eyni zamanda da Davamlı İnkişaf üzrə 2030 Gündəliyinin hədəflərinə çatmaqda gənclərin daha fəal iştirakı kimi gənclər siyasətinin müxtəlif aspektlərini əhatə edəcək. Gənclər Şəbəkəsinin yaradılmasında məqsəd Qoşulmama Hərəkatına üzv dövlətlərin gənclərin ictimai-siyasi həyatda rolunu təmin etməkdir. Bilirsiniz ki, Zirvə görüşü çərçivəsində Azərbaycan ilk dəfə Qoşulmama Hərəkatının Gənclər Sammitinin Bakıda keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Gənclər Zirvəsi Qoşulmama Hərəkatına üzv dövlətlərdən 40 görkəmli gənci bir araya gətirdi. Eyni zamanda, burada Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi yaradıldı. Bu ideyanın gerçəkləşməsinin Azərbaycanın özü üçün də böyük əhəmiyyəti var. Bu şəbəkənin fəaliyyəti Qoşulamama Hərəkatına üzv dövlətlər arasında müxtəlif istiqamətlərdə əlaqələrin daha da möhkəmləndirilməsinə səbəb olacaq. Gənclərin qarşılıqlı və faydalı əməkdaşlıqları nəticəsində Azərbaycanın həqiqətləri bir daha beynəlxalq aləmin diqqətinə çatdırılacaq və Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsi genişlənəcək. Bütün dünyaya məlumdur ki, Azərbaycan dünya mədəniyyətlərarası, dinlərarası dialoq mərkəzlərindən biridir və bu sahədə zəngin, ən üstün təcrübəyə malikdir".

Azərbaycanda həyata keçirilən gənclər siyasətinin unikal bir model kimi Qoşulmama Hərəkatına üzv dövlətlər üçün bir örnək olduğunu vurğulayan K.Qubadzadə hesab edir ki, Gənclər Şəbəkəsinin formaşdırılmasına da ölkəmiz kifayət qədər dəstək verir. Bu şəbəkənin yaradılmasını Qoşulmama Hərəkatına üzv dövlətlərin tarixində yeni dövr kimi xarakterizə edən K.Qubadzadə hesab edir ki, bu gün gənclərin kütləvi olaraq böyük dövlət vəzifələrinə təyin edilməsi, onlara yüksək postlar etibar edilməsi bu prosesin məntiqi nəticəsidir.

***İradə SARIYEVA***

# Qoşulmayan ölkələr platforması Xocalı genosidini tanıyan ölkələrin sayını dəfələrlə artıra bilər

## *Şamil Sabiroğlu: "Məhz həmin ölkələrin sırasından daha çox dövlət Xocalı soyqırımını tanıyacaq"*




**Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşü zamanı söylədiyi nitqdə Azərbaycan Prezidenti Xocalı soyqırımı faktına da toxunub. Cənab Prezident bildirib ki, bununla Azərbaycan xalqına qarşı ermənilər tərəfindən soyqırım törədilib: "Azərbaycanın dövlət müstəqilliyinin cəmi 28 yaşı var.**

Bir həftə öncə - oktyabrın 18-də müstəqilliyimizin bərpa olunması gününü qeyd etdik. Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon - ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizi iyirmi beş ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmış və nəticədə bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi və qaçqınların, məcburi köçkünlərin əhalinin adambaşına düşən sayına görə ölkəmiz dünyada ilk yerləri tuturdu. Ermənistan azərbaycanlılara qarşı Xocalı soyqırımını törətmişdir. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq yalnız azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirilmişdir. Mindən çox insan itkin düşmüşdür.

Xocalı soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınmışdır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur. Təəssüf ki, həmin qətnamələr həyata keçirilməmişdir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günün içində icra edilir. Bəzən isə Azərbaycanın üzləşdiyi münaqişəyə münasibətdə olduğu kimi, 26 ildir ki, kağız üzərində qalır.

Bu ikili standartlar siyasətinə son qoyulmalıdır. İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul etmişlər. Fürsətdən istifadə edərək Qoşulmama Hərəkatının indiyə qədər qəbul olunmuş sənədlərində münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə etdiklərinə görə üzv dövlətlərə təşəkkürümü bildirirəm".

Qoşulmama Hərəkatı çox geniş bir platforma sayılır. Dünyadakı ölkələrdən təxminən yarısını öz ətrafında cəmləyir. Bu platformada təbliğatın güclənməsi və Azərbaycanın apardığı iş Xocalı genosidini tanıyan ölkələrin sayını dəfələrlə artıra bilərmi?

"Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin sədri Şamil Sabiroğlu qəzetimizə açıqlamasında bildirdi ki, Xocalı faciəsinin soyqırımı kimi tanıdılması Azərbaycan dövlətinin prioritetlərindən biridir: "Təsadüfi deyil ki, bu istiqamətdə müntəzəm işlər aparılır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Xocalıya ədalət" beynəlxalq kampaniyası bu baxımdan xüsusi yer tutur. Bu kampaniyanın əsas məqsədi dünya ictimaiyyətinin diqqətini Xocalı faciəsinə yönəltmək, onu törədənlərin məsuliyyətə cəlb olunmasına nail olmaq və bu faciədən əziyyət çəkən ailələrə dəstək olmaqdır. Bütün bu görülən işlərin nəticəsində Amerikanın 22 ştatı və 15 ölkənin parlamenti Xocalı faciəsini rəsmi olaraq soyqırımı kimi tanıyır. Ancaq bu insanlıq faciəsinin dünyaya daha geniş tanıdılması üçün işlər hələ bitməyib. Dünyanın bir sıra ölkələri Xocalı faciəsini soyqırımı kimi tanıyıblar. Bu isə 2004-cü ildən başlayaraq, bu faciənin dünyada tanıdılması üçün həyata keçirilən sistemli tədbirlər nəticəsində mümkün olub".

QHT sədrinin sözlərinə görə, bu günədək Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerikanın 70-dən çox ölkəsində bu facie ilə əlaqədar tədbirlər keçirilib: "Tədbirlər çərçivəsində müxtəlif ölkələrin parlamentləri və dövlət qurumları qarşısında etiraz aksiyaları, piketlər, habelə seminarlar, konfranslar təşkil olunub, kitablar nəşr edilib və filmlər çəkilib.Xocalı faciəsinin dünyada tanıdılmasında ən vacib tədbirlərdən biri isə 2012-ci Ildə Türkiyənin İstanbul şəhərində 60 min insanın iştirak etdiyi böyük yürüş olmuşdu. Bu barədə nəinki Türkiyə mediası, hətta dünya mətbuatı da geniş yazılar dərc etmişdi. Faciənin tanıdılması üçün xaricdə aparılan təbliğat və təşviqat prosesləri öz nəticəsini verməkdədir.

57 ölkənin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı da Xocalı soyqırımını tanıyıb. Bununla bağlı təşkilatın bir neçə qətnaməsi var. Bundan başqa, Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" kimi müəyyən edib.

**Təbii ki, biz işləri bununla bitmiş saymırıq. Qoşulmama Hərəkatı platforması çərçivəsində bu təbliğatın güclənməsi Xocalı soyqırımını tanıyan ölkələrin sayını artıra bilər. Bir sözlə, kimin əlindən nə gəlirsə, bu istiqamətdə etməlidir. Qoşulmama Hərəkatı özündə dünyanın həddən artıq çox sayda ölkəsini birləşdirir. Ümidvarıq ki, məhz həmin ölkələrin sırasından daha çox dövlət Xocalı soyqırımını tanıyacaq".**

*Məhəmmədəli*
***QƏRİBLİ***

**Ermənilərin fürsətcil olduqları, ən kiçik hadisəni öz xeyirləri üçün istifadə etmələri yüz illərdir bütün dünyaya məlumdur. Türkiyənin "Sülh çeşməsi" əməliyyatından öz çıxarları üçün istifadə etmək də bu çoxəsrlik xəstə təxəyyülün əlamətlərindən biridir.**

# Erməni lobbisi saxta "genosid" layihəsini Konqresə soxuşdurmaq üçün yeni fürsət tapıb - bəs Azərbaycan, Türkiyə?




### *Vüqar Rəhimzadə: "Nümayəndələr Palatasında qondarma "soyqırım"la bağlı qətnamənin səsverməyə çıxarılacağı real görünmür"*

Bu yaxınlarda Dağlıq Qarabağa qanunsuz səfər edən ABŞ konqresmeni Frenk Palonenin erməni lobbisinin maliyyələşdirməsi nəticəsində anti-Azərbaycan və anti-Türkiyə mövqeyi geri döndükdən sonra da davam edir. Ermənilər Türkiyənin Suriya sərhədlərində antiterror əməliyyatını birmənalı qarşılamayan Qərbin Türkiyəyə olan soyuq münasibətindən yararlanaraq, "genosid" oyununu yenidən gündəmə gətirməyə çalışırlar.

Erməni mətbuatı yazır ki, ABŞ Konqresinin aşağı instansiyası olan Nümayəndələr Palatası qondarma "erməni soyqırımı" ilə bağlı qətnamə layihəsinə baxmağa hazırlaşır. Məlumata görə, Nümayəndələr Palatası Palonenin təklifi ilə qondarma "erməni genosidi"ni tanımaq haqqında qətnaməni səsverməyə çıxaracaq. Qondarma "soyqırım" məsələsi səsverməyə çıxarılsa, bu, 1984-cü ildən bəri ilk dəfə olacaq. Erməni mətbuatı qeyd edir ki, sonuncu dəfə ABŞ Nümayəndələr Palatası 1984-cü ildə qondarma "erməni soyqırımı" ilə bağlı qətnaməni səsverməyə çıxarıb. Ermənistan müstəqillik əldə etdikdən sonra dəfələrlə qondarma "genosid"lə bağlı layihə hazırlanıb, amma Nümayəndələr Palatasında səsverməyə çıxarılmayıb.

Suriya məsələsinə görə Türkiyə ilə ABŞ arasında yaşanan soyuqluğu fürsət bilən ermənilər ümid edirlər ki, bu həftə qondarma "soyqırım" məsələsi Nümayəndələr Palatasında səsverməyə çıxarılacaq.

O da məlumdur ki, qondarma "soyqırım" məsələsinin səsverməyə çıxarılması təkcə Türkiyəyə qarşı yönələn bir siyasət deyil. ABŞ Konqresi bu addımı atacaq olarsa, o zaman bu, Azərbaycanla olan münasibətlərə də mənfi təsir edəcək. O baxımdan bütün bunları ekspertlər necə dəyərləndirirlər?

*"Rəsmi Vaşinqton Türkiyə ilə yanaşı, Azərbaycanın da maraqlarını nəzərə alır"*

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, erməniləin bu yöndə aktivliyini artırmasına rəğmən, ABŞ-ın Nümayəndələr Palatasında qondarma "soyqırım"la bağlı qətnamənin səsverməyə çıxarılacağı real görünmür: "Nəzərə almaq lazımdır ki, Türkiyə ABŞ-ın strateji müttəfiqidir. NATO blokunda Türkiyə çox önəmli strateji mövqeyə malikdir. Türkiyə həm də regionda çox böyük rola, nüfuza malik bir ölkədir. İraqda, Suriyada Türkiyənin yardımı olmadan sabitliyə, inkişafa nail olmaq mümkün deyil. Suriyada gedən son proseslər də bir daha göstərdi ki, Türkiyənin yardımı olmadan ciddi dönüş yaratmaq mümkünsüzdür. Bəli, Suriya ilə bağlı ABŞ-la Türkiyə arasında müəyyən fikir ayrılıqları var. Neçə vaxtdır ki, bu fikir ayrılıqları iki ölkə münasibətlərinin gərginləşməsinə səbəb olub. Ancaq bu heç də ona əsas vermir ki, Birləşmiş Ştatlar bu səbəbdən qondarma "erməni soyqırımı" ilə bağlı qətnamənin səsverməyə çıxarılmasına şərait yaradacaq. Hesab edirəm ki, indiki situasiyada ABŞ buna getməyəcək. Rəsmi Vaşinqton Türkiyə ilə yanaşı, Azərbaycanın da maraqlarını nəzərə alır. Bu gün ABŞ-Azərbaycan münasibətləri yüksək səviyyədədir. Türkiyəyə yönəlik belə bir qətnamə qəbul edilsə, əlbəttə ki, bu, Azərbaycanda da mənfi qarşılanacaq. O baxımdan sözügedən məsələni real hesab etmirəm".

***Vidadi ORDAHALLI***

**Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa öz dəyərli töhfəsini verir. Bunu Prezident İlham Əliyev Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşündəki nitqində deyib.**

# Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb dəhlizləri və Qoşulmayan ölkələr üçün yeni fürsətlər...




### *Azər Allahverənov: "Sözügedən ölkələr həmin nəqliyyat dəhlizlərinin yaratdığı imkanlardan istifadə etsələr, bu onların xeyrinə olacaq"*

Ölkə başçısının sözlərinə görə, Azərbaycan Asiya ilə Avropa arasında körpü rolunu oynayır: "Azərbaycanda enerji təhlükəsizliyi təmin edilmişdir. Yenə də Davos Ümumdünya İqtisadi Forumunun hesabatına istinad edərək deməliyəm ki, elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Azərbaycan, eyni zamanda, bir sıra ölkələrin enerji təchizatçısıdır. Asiya və Avropa qitələri arasında körpü rolu oynayan Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə kimi bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr - Cənub-Qərb və Şimal-Qərb layihələri üzərində çalışırıq. Beləliklə, Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa öz dəyərli töhfəsini verir".

O da məlumdur ki, BMT-dən sonra üzv ölkələrin sayına görə dünyada ikinci ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatı ölkələrində dünya əhalisinin 55 faizi yaşayır. Dünya neft ehtiyatlarının 75, qaz ehtiyatlarının isə 50 faizi bu ölkələrin payına düşür. Ölkəmizin sədr seçilməsi həm də Qoşulmama Hərəkatında təmsil olunan ölkələrə Azərbaycanın yaradıcısı olduğu Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərindən faydalanmaq imkanları yaradır. O baxımdan maraqlıdır, QH ölkələri üçün sözügedən nəqliyyat dəhlizləri necə perspektivlər yaradır?

*"Nəzərə almaq lazımdır ki, Azərbaycanın beynəlxalq müstəvidə tranzit ölkə olaraq rolu artır"*

Məsələyə münasibət bildirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənovun sözlərinə görə, QH-də təmsil olunan ölkələr bu və ya digər dərəcədə Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin imkanlarından istifadə edə bilərlər: "Sözügedən ölkələr həmin nəqliyyat dəhlizlərinin yaratdığı imkanlardan istifadə etsələr, bu onların xeyrinə olacaq. Azərbaycanın QH-yə rəhbərlik etməsi ölkə qarşısında yeni imkanlar açır. O cümlədən də nəqliyyat, beynəlxalq yükdaşımalar və logistika sahəsində. QH-də kifayət qədər çoxsaylı ölkələr təmsil olunur. Bu hərəkat, bir növ, platformadır və burada müxtəlif istiqamətlər üzrə tərəfdaşlıq potensialları ortalığa qoyulur. Bu çərçivədə dövlətlərarası əməkdaşlıq əlaqələri müxtəlif sferalar üzrə inkişaf etdirilir. QH ölkələrinin Azərbaycanın beynəlxalq müstəvidə həyata keçirilən nəqliyyat layihələrindən istifadə etmək perspektivi böyükdür. Bu, ölkələrarası əlaqələrin inkişafına təkan verəcək. Həm iqtisadi, həm də digər baxımdan bunun əhəmiyyəti böyükdür. Nəzərə almaq lazımdır ki, Azərbaycanın beynəlxalq müstəvidə tranzit ölkə olaraq rolu artır. QH ölkələri Azərbaycanın fəal iştirak etdiyi nəqliyyat layihələrinin imkanlarından yararlansa, bu, iqtisadi baxımdan həmin dövlətlərin xeyrinə olacaq. Hesab edirəm ki, qarşıdakı illərdə bu yöndə perspektivlər böyükdür. Çox güman ki, hərəkatda təmsil olunan bir sıra ölkələr bu imkanları düzgün dəyərləndirəcək və bu layihələrdən istifadə edəcəklər".

***Vidadi ORDAHALLI***

# Paşinyan Pentaqonun Ermənistanda hərbi sirr obyektini Rusiyaya açır...

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov noyabrda Ermənistana səfər edəcək. Ermənistan KİV-nin verdiyi məlumata görə, səfər çərçivəsində rusiyalı mütəxəssislərin Ermənistanda yerləşən və Pentaqonun pulu ilə yaradılan biolaboratoriyalara girişini təmin edən memorandum imzalanacaq.**



## *Daşdəmir Əliyev: "Ermənistan artıq Rusiya mütəxəssislərini ora buraxmağa razılıq veribsə, bu, ABŞ-ı satdığı anlamına gəlir"*

Hətta sənədin mətninin hazır olduğunu və qurumlararası razılaşdırmadan keçdiyi də bildirilir. Qeyd olunur ki, memorandum iki ölkə arasında tibbi-bioloji sahədə əməkdaşlığı nəzərdə tutur.

ABŞ-ın vəsaiti ilə modernləşdirilmiş, bioloji tədqiqatlar aparılan, ştamm və virusların öyrənildiyi laboratoriyalar MDB məkanında Ukrayna, Gürcüstan, Ermənistan və Qazaxıstanda fəaliyyət göstərir. Rusiya dəfələrlə ABŞ-a onun sərhədlərində görülən bu tip işlərlə bağlı narazılığını ifadə edib. Bununla, faktiki olaraq, Paşinyan hakimiyyəti ABŞ-ın hərbi əhəmiyyət daşıyan laboratoriyalarını Rusiyanın üzünə açır. Başqa sözlə desək, ABŞ-ın sirlərini təröddüd etmədən Rusiyaya təqdim etməyə hazır olduğunu deyir. Bəllidir ki, ABŞ Paşinyanı ciddi qəbul etmir. Ermənistan Baş nazirinin ciddi səylərinə baxmayaraq, rəsmi Vaşinqton onunla təmas qurmağa maraq göstərmir. Görünür, buna görədir ki, Paşinyan əlini üzdüyü ABŞ-ı belə asanlıqla Rusiyaya satmağa hazır olur. Bu prosesin sonu nə ilə yekunlaşa bilər?

Hərbi ekspert Daşdəmir Əliyev qəzetimizə bildirdi ki, bu qalmaqla ötən ilin sonunda başlayıb: "Həmin vaxt Ermənistanın yeni rəhbərliyi bir-birini təkzib edən açıqlama ilə çıxış edirdi. Yadınızdadırsa, Ermənistan XİN-in mətbuat katibi Tiqran Balayan keçirdiyi brifinqdə açıqlama verərək bildirmişdi ki, Ermənistanda ABŞ laboratoriyalarının mövcudluğu ilə bağlı KİV-də yayılan məlumatlar həqiqətə uyğun deyil. O demişdi ki, Ermənistanda Amerika və ya digər xarici ölkələrin laboratoriyaları yoxdur. Onların hamısı birbaşa olaraq Ermənistanın yurisdiksiyası altında fəaliyyət göstərir və həmin laboratoriyalarda çalışanlar Ermənistan vətəndaşlarıdırlar. Bundan bir qədər sonra isə Ermənistanın Baş naziri Nikol Paşinyan Rusiya mətbuatına verdiyi müsahibədə öz diplomatlarını təkzib edərək demişdi ki, belə laboratoriyalar mövcud dur. Hətta bildirimişdi ki, onun şəxsi göstərişi ilə rusiyalı mütəxəssislər ABŞ laboratoriyalarına buraxılıb və əmin olublar ki, orada qorxulu nəsə yoxdur. Həmin vaxt Paşinyan əminliklə dedi ki, həmin laboratoriyalar heç bir şəkildə Rusiyaya qarşı istifadə edilə bilməz. Qeyd edək ki, bundan əvvəl Rusiya XİN keçmiş SSRİ məkanında, xüsusən də Ermənistandakı ABŞ laboratoriyalarının humanitar məqsədlə deyil, Pentaqonun hərbi-bioloji maraqlarına uyğun şəkildə istifadə edildiyini bildirərək, Moskvanın narahatlığını ifadə etmişdi. Ermənistanda Amerikaya məxsus və Pentaqonun pulları ilə yaradılan laboratoriyalar şəbəkəsi bioloji materialların tədqiqatı ilə məşğul olduğunu bildirsə də, Rusiya kəşfiyyatının əlindəki etibarlı məlumatlara görə, Gürcüstan və Ukraynada da "uğurlu" fəaliyyət göstərən bu laboratoriyalar bioloji silah yaradılması üzərində işləyirlər.

*"Yəqin ki, bundan sonra ABŞ həmin layihəni dayandıracaq"*

**Ermənistan artıq Rusiya mütəxəssislərini ora buraxmağa razılıq veribsə, bu, ABŞ-ı satdığı anlamına gəlir. Yəqin ki, bundan sonra ABŞ həmin layihəni dayandıracaq".**

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan silah tenderinə qoşulmuş rus şirkətinin milyonlarını batırdı, üstündən də yalan bəyanat verdi...

**Ermənistan Müdafiə Nazirliyinin silah alınması üzrə keçirdiyi tenderdən Rusiya şirkətini çıxarması iki ölkə arasında gərginlik yaradıb. İrəvan "Promtexnoloqii" qrupuna daxil olan "ORSIS" şirkətini həm də "ləyaqətsiz təchizatçılar siyahısı"na salıb ki, bu da Rusiyanın Ermənistana nota verməsinə səbəb olub.**



## *Elşən Manafov: "Bu addım Ermənistan hakimiyyətinin qərbyönümlü siyasət yeritməsindən irəli gəlir"*

Rəsmi Moskva Rusiyanın "ORSIS" şirkətinin də iştirak etdiyi silah tenderinin dayandırılması ilə əlaqədar Ermənistana etiraz notası göndərib və bu ölkənin müdafiə naziri David Tonoyandan bu vəziyyəti həll etməsi istənilib. Bu barədə yayılmış sənədə deyilir ki, 2019-cu ilin avqust ayında "ORSIS" şirkətinin nümayəndəsi "RİA Novosti"yə bildirib ki, onların da qatıldığı bir neçə milyon dollarlıq silah tədarükü ilə bağlı Ermənistan Müdafiə Nazirliyinin tenderinin ləğvindən sonra ölkədə "xidmətə qarşı laqeydlik" maddəsi ilə cinayət işi başlanıb. Sonradan bu məlumat nazirlik tərəfindən də rəsmi olaraq təsdiqlənib. 2 oktyabr 2019-cu ildə Rusiya Federasiyası Sənaye və Ticarət Nazirliyi rəhbərinin müavini Oleq Ryazansev tərəfindən imzalanmış və Ermənistanın müdafiə naziri David Tonoyana ünvanlanan notada deyilir ki, "ORSIS"in bu tenderdə iştirak üçün müraciəti "səbəbsiz olaraq rədd edilib" və şirkətin özü Ermənistan ordusunun "ləyaqətsiz təchizatçıları siyahısı"na daxil edilib. Sənəddən də görünür ki, Ermənistan Müdafiə Nazirliyi "tenderdə iştirak üçün bank zəmanətinin ödənilməsi tələbi ilə banka qanunsuz müraciət edib", baxmayaraq ki, şirkət tenderdə qalib gələrsə və müqaviləni imzalamaqdan imtina etsə belə, kompensasiya ödənilməsi qanunla tələb olunur.

Çox qəribədir ki, Ermənistan tərəfi Rusiyanın bununla bağlı nota verilməsini danır. Ermənistan XİN-in mətbuat katibi Anna Nağdalyan jurnalistlərə açıqlamasında bildirib ki, belə bir nota daxil olmayıb: "Ermənistan Xarici İşlər Nazirliyinə silah tədarükü üzrə tenderin pozulması ilə əlaqədar Rusiya Xarici İşlər Nazirliyindən heç bir mesaj gəlməyib".

Görünən odur ki, Ermənistan həm tenderə qoşulmuş Rusiya şirkətini kənarlaşdırır, həm də yalan bəyanat verir. Saki tərəflər arasında heç nə baş verməyib. Bütün hallarda, yaşanan qalmaqal iki ölkə münasibətlərinə təsirsiz ötüşməyəcək.

*"Ermənistan Rusiyanın Azərbaycanı daha müasir silahlarla təmin etməsini həzm edə bilmir"*

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, tenderdən Rusiya şirkətinin çıxarılması təsadüfi deyil: "Bu qalmaqal Ermənistan hakimiyyətinin Rusiya ilə münasibətlərində olan gərginliyin daha da artması üçün müəyyən mənada ciddi amil ola bilər. Çünki Paşinyan hakimiyyətinin qərbyönümlü siyasəti onsuz da Kremli qane etmirdi və münasibətlərdəki gərginlik də bununla əlaqədar idi. Baxmayaraq ki, Paşinyan Moskva ilə münasibətlərə ölçülü-biçilmiş kontekstdə yanaşmağa çalışır. Ancaq Ermənistan Rusiyanın Azərbaycanı daha müasir silahlarla təmin etməsini həzm edə bilmir. Ermənistan hakimiyyətinin düşüncə tərzinə görə, Rusiya öz müttəfiqi ilə münasibətlərin mahiyyətinə sanki xəyanət edir. Ermənistan hesab edir ki, bu ölkə KTMT-də təmsil olunduğu üçün Rusiya Azərbaycana silah ixrac etməməlidir. O üzdən, "ORSIS"i tenderdən kənarlaşdırmaqla Rusiyaya etirazını bildirmək istəyir. Bu, məsələnin bir tərəfi. Digər tərəfdən, bu addım Ermənistan hakimiyyətinin qərbyönümlü siyasət yeritməsindən irəli gəlir. Ona görə də baş verənlər təsadüfi deyil. Ancaq, bütün hallarda, Rusiyanın Ermənistanın hazırkı hakimiyyətinə təsir etmək üçün kifayət qədər rıçaqları var. Qazın qiymətinin qaldırılması kifayət edir ki, Ermənistan iqtisadiyyatı pis vəziyyətə düşsün. Ancaq Kreml hələlik tələsmir. Gözləyir ki, ölkədə sosial narazılıqlar bir qədər də artsın. Ondan sonra "Qarabağ klanı"ndan bir vasitə kimi istifadə edib ölkədə Paşinyan hakimiyyətini devirsin".

***Vidadi ORDAHALLI***

# Əli Həsənov "teleqram kompromatlarını" elə həmin teleqramın məntiqi ilə də vurdu

**Prezidentin köməkçisi Əli Həsənov özünün facebook səhifəsində onun 80-ci illərdə Moskvadan Vəzirova göndərilmiş teleqramla bağlı adının kampaniyaçılıqla hallandırılmasına cavab verib. Əli Həsənov yazır:**







Телеграмма в номер

Баку, ЦК Компартии Азербайджана, первому секретарю ЦК товарищу А. Х. ВЕЗИРОВУ

Мы, участники встречи с деканом исторического факультета Азгосуниверситета имени С. М. Кирова, ознакомились с теми позитивными и реальными переменами, которые происходят в нашей республике благодаря целенаправленной деятельности Компартии Азербайджана в процессе перестройки. Мы со всей ответственностью осознаем те большие задачи, стоящие перед партией, перед всем советским народом, и хотим вас заверить в том, что в республику мы вернемся высококвалифицированными научными кадрами и посвятим себя делу перестройки. На достижение этой цели мы направим всю свою силу, энергию и знания. Мы приветствуем и глубоко поддерживаем целенаправленную работу нового руководства Компартии Азербайджана.

Студенты и аспиранты исторического факультета МГУ им. М. В. Ломоносова Агакишиев И. А., Джавадова А. С., Ибадов Р. А., Караев Ш. Э., Гулиев Г. Б., Магеррамов Н. У., Гасанов А. М., Азаева А. А., Казиева С. Ф. и другие.

МОСКВА.

- Əziz oxucular,

Tutduğum vəzifənin mənə verdiyi səlahiyyət çərçivəsində, heç bir tərəddüd göstərmədən və çətinlik çəkmədən cəmiyyətimizdə baş verən hadisələrə, ictimai-siyasi proseslərə hakimiyyətin münasibətini həmişə açıq ifadə etmişəm. Çünki hər bir sağlam vətəndaş, o cümlədən hər bir məmur kimi mən də istər ümummilli lider Heydər Əliyevin, istərsə də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin, qəbul etdiyi qərarların əsasında milli maraqlarımızın, xalqa xidmət amalının dayandığına inanmışam və tam əmin olmuşam. Moskva Dövlət Universitetinin aspirantı olaraq, 1990-cı ildə Ulu Öndər Heydər Əliyevi Vətənə müşayiət edəndə, sonrakı dövrdə onunla birgə bütün siyasi proseslərin iştirakçısı olanda və 2003-cü ildən bu günə kimi Prezident İlham Əliyevin siyasi kursunun həyata keçirilməsində fəal iştirak etdiyim ötən 16 ildə bir mövqeyim, bir məsləyim, bir əqidəm olub.

Mən öz siyasi mövqeyim, ölkəmizin keçdiyi inkişaf yolu, hazırkı durumu və gələcəyi ilə bağlı bütün polemikalara da həmişə hazır olmuşam və sağlam tənqidi normal hal kimi qarşılamışam. Barəmdə müzakirəyə çıxarılan müxtəlif şayiələrə, "kompromatlara" da dözümlü yanaşmışam, düşünmüşəm ki, demokratik cəmiyyətlərdə sözü bitən qüvvələrin belə ucuz vasitələrlə öz opponentlərini gözdən salmaq cəhdi Azərbaycan üçün də yenilik deyil. Lakin bu iddialar əndazəsini aşanda, "gözünü qan örtmüş bəzi siyasi avantüristlərin" və əlaltılarının sayıqlamaları bütün sərhədləri keçəndə öz sözümü demişəm və prinsipial mövqeyimi də ortaya qoymuşam.

Artıq bir neçə gündür ki, 30-40 il bundan qabaq, tələbəlik illərində Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Əbdürrəhman Vəzirova Moskvada təhsil alan bir qrup tələbənin "yenidənqurmanın dəstəklənməsi ilə bağlı" göndərdikləri teleqramda mənim də adımın keçməsi ətrafında kampaniya təşkil olunub. Birincisi, maraqlıdır, görəsən həmin dövrü yaşayan insanlardan kim 1985-ci ildə başlanmış yenidənqurma prosesinin əleyhinə çıxıb və onu dəstəkləməkdən imtina edib?! İkincisi, 1988-ci ildə MDU-nun tarix fakültəsinin akt zalında Bakı Dövlət Universitetinin tarix fakültəsinin dekanı ilə görüşdən sonra hələ sərbəst həyata qədəm qoymağa hazırlaşan gənc tələbələrin toplandığı bir auditoriyanın adından Azərbaycan KP MK-ya göndərilən teleqramda adı keçən onlarla şəxsin sırasından bir nəfərin seçilərək hədəfə alınması nə deməkdir? Bu, əlbəttə ki, bunu edən insanların cılızlığının, acizliyinin əlaməti, suda boğulanın saman çöpündən yapışması deməkdir. Hələ yaxşı ki, onlar mənim tribunada Leonid Brejnevi alqışlamağımın şəklini verməyiblər, aktiv komsomolçu, ayrı-ayrı dövrlərdə tələbə-inşaat dəstəsində komandir olmağımdan yazmayıblar. Üçüncüsü, əgər bunda bir əsas görürlərsə və iddia etdikləri kimi obyektiv qiymətləndirmə aparırlarsa, onda 1990-cı ildə MDU-nun aspirantı olaraq Heydər Əliyevi Azərbaycana qədər müşayiət eləməyimi, ümummilli liderin rəhbərliyi altında bütün siyasi proseslərdə fəal iştirakımı və sonrakı fəaliyyətimi niyə qeyd etmirlər? Bu insanlar barmaqlarını sorub mənim haqqımda kompromat axtarsalar da, heç zaman tapa bilməyəcəklər. Çünki mən həyatımın hər anına məsuliyyət daşıyıram, hər anı üçün də cavab verməyə hazıram. Açığı, belə primitiv yollarla hamının tanıdığı bir məmuru nüfuzdan salmaq istəyənlərin normal ağıla və məntiqə malik olması ciddi şübhə doğurur.

Uzun müddətdir ki, sabiq xarici işlər naziri, Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyev və hazırda xaricdə yaşayan Qurban Məmmədovla olan bir şəkli də sosial şəbəkələrdə mənə qarşı ciddi "kompromat" kimi istifadə edirlər. Bu məsələyə bir dəfə münasibət bildirmişəm və bu gün bir daha təkrar edirəm ki, həmin şəkil 1994-cü ildə - mən Yeni Azərbaycan Partiyasında şöbə müdiri vəzifəsində işlədiyim zaman Vilayət Quliyevin bağında çəkilib. Həmin ilin mart-aprel aylarında biz nümayəndə heyətinin tərkibində birlikdə ABŞ-da səfərdə olmuşduq. Qayıdandan sonra Vilayət Quliyev məni bağına dəvət etdi və mən də dəvəti qəbul etdim. O ki qaldı Qurban Məmmədovla şəklimin mənə qarşı kompromat kimi istifadə olunmasına, demək istəyirəm ki, onunla bir neçə il tələbə yoldaşı olmuşuq, eyni yataqxanada yaşamışıq. Tələbəlikdən sonrakı dövrdə Qurban Məmmədov dövlətə və hakimiyyətə qarşı mövqeyini dəyişdi. O, radikal çıxışlara başladığı günə kimi münasibətimiz olub. Məlum dəyişiklikdən sonra onunla bütün əlaqələri kəsmişəm. Onu da qeyd edim ki, rəsmi şəxs kimi mən müxtəlif tədbirlərdə yüzlərlə insanla şəkil çəkdirirəm. Şəkil həvəskarlarına bildirmək istəyirəm ki, belə ucuz və primitiv yollarla özlərini yormasınlar, çamur ancaq layiq olduğu yerə yapışar.

Daha nə deyirlər mənim haqqımda? Əli Həsənov dövlətin media siyasətini "bərbad hala salıb", "uçuruma yuvarladıb". Belələrinə bir cümlə ilə cavab vermək istəyirəm: əgər milli media təsisatlarının əsas fəaliyyəti insanların lazımi informasiya ehtiyaclarını ödəmək, fəaliyyət göstərdiyi ölkənin milli maraqlarını ifadə edərək, öz dövlətinin inkişafına, ictimai-siyasi həyatın sabitliyinə, vətəndaş maraqlarının qorunmasına, ictimai həyat normalarının təbliği və təlqin edilməsinə, cəmiyyətdə yaşanan proseslərin şəffaf şəkildə əks olunmasına xidmət edirsə və bu mövcud sahənin hazırkı reallığıdırsa, onda hansı iflasdan söhbət gedə bilər. Yaxud, Azərbaycan mediasının hazırda regionda öz gücü və nüfuzu ilə tanınması, qlobal informasiya məkanında fəal iştirak etməsi, ölkə həqiqətlərini dünya ictimaiyyətinə çatdıra bilməsi onun iflası hesab olunursa, o zaman belə məntiqlə mübahisə etməyin qətiyyən yeri yoxdur.

Diqqətinizi daha bir məqama yönəltmək istəyirəm. Maraqlıdır ki, mənim kimi yüksək statuslu bir məmurun, ölkə prezidentinin köməkçisinin haqqında istənilən informasiyaları müxtəlif vasitələrlə və istədikləri qədər tirajlayanlar, ayrı-ayrı KİV-lərə sərbəst müsahibə verərək hakimiyyəti sərt tənqid edənlər, özlərinin sosial media ünvanlarından məmurlar haqqında ağlasığmaz hədyanlar yağdıranlar eyni zamanda ölkədə azad media mühitinin olmamasından necə şikayətlənə bilərlər? Gəlin, birlikdə düşünək, senzuranın hökm sürdüyü, medianın qeyri-azad olduğu bir ölkədə bu qədər sərbəst müzakirə mühiti, ümumiyyətlə, mümkündürmü? Əlbəttə, yox! Burada söhbət yalnız vaxtilə ölkəni xaosa və anarxiyaya sürükləmək istəyənlərin hazırda eyni ssenarini ən azından Azərbaycan mediasında tətbiq etmək cəhdindən gedə bilər. Təbiidir ki, Azərbaycan iqtidarı bu cür bədxah planların reallaşmasına heç zaman imkan verməyəcək!

Beləliklə, xüsusi pullar hesabına haqqımda tirajlanan "ciddi kompromatlar" bunlardan ibarətdir. Açığı deyim ki, başdan-ayağa çirkab içində boğulan bu tipli insanlarla heç vaxt polemikaya girmək istəməmişəm. Çünki onların haqqımda tirajladığı "kompromatlar" ayrı-ayrı vaxtlarda Əli İnsanov, Əli Kərimli, Cəmil Həsənli və digər bu kimi iqtidara, xalqa və dövlətə qənim kəsilən şəxslər tərəfindən dövriyyəyə buraxılıb və boş, mənasız iddialar olduğu sübuta yetirilib. Üzümü bir daha AXCP sədri Əli Kərimliyə, "Milli Şura" adlanan qurumun 2013-cü ildə Prezident İlham Əliyevə açıq mübarizədə uduzmuş sədri Cəmil Həsənliyə və fəallarına tutaraq bəyan edirəm ki, sizin hazırkı hiyləgər taktikanız da iflasa uğrayacaq. Sizin kimi "siyasətçilər" heç zaman ölkə başçısının monolit komandasını daxildən parçalayaraq dağıda bilməyəcək. Gündə bir əqidə dəyişən, hakimiyyət və onun təmsilçiləri haqqında yalan və qərəzli məlumatlar yayan, çirkin şayiələr uyduran, cılız və naqis metodlardan bəhrələnərək sədaqətli, mübariz hakimiyyət nümayəndələrini ləkələməyə çalışan sizlər bu yolla özünüzə heç bir hakimiyyət perspektivi yarada bilməyəcəksiniz. "Roma Papasından böyük katolik" kimi görünməyə çalışan və onu-bunu ləkələməkdə davam edən belələrinə bir məsləhətim var: şüşəli evdə oturub başqalarını daşa basmayın!

P.S. Həm məlum teleqramı, həm də bağ evində çəkilmiş şəkli statusa əlavə edirəm.

***Əli HƏSƏNOV***
***Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanda aprel sindromu dərinləşir

**2016-cı il aprelin əvvəlində baş verən məlum döyüşlərdən uzun müddət keçməsinə baxmayaraq, onun nəticələri hələ də Ermənistanda geniş rezonans doğurmaqda davam edir. Belə görünür ki, ermənilər hələ də o vaxt üzləşdikləri məğlubiyyətin acısını yaddan çıxara bilməyiblər, həm də bu məsələ ölkədə yeni siyasi çəkişmə predmetinə çevrilir.**

Hər halda, baş verənlər aprel döyüşlərinin hələ uzun müddət Ermənistanda başlıca müzakirə mövzularından biri olaraq qalacağını deməyə əsas verir.

Bir daha qeyd edək ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycanın mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qalıb.

İşğalçı ordunun atəşkəs rejimini və beynəlxalq hüquq normalarının tələblərini kobud şəkildə pozaraq Azərbaycanın cəbhəboyu ərazilərində, əsasən Ağdam, Tərtər, Goranboy, Füzuli və Ağcabədi rayonlarında yerləşən yaşayış məntəqələrini və mülki obyektləri iri çaplı silahlardan, mina və qumbaraatanlardan, artileriya qurğularından intensiv atəşə tutmaları nəticəsində 6 nəfər mülki şəxs həlak olub, 25 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, artilleriya qurğularından atılmış mərmi zərbələri nəticəsində vətəndaşların 641 yaşayış evinə və 22 sosial obyektə ziyan dəyib və ya onlar dağıdılaraq tam yararsız hala salınıb. Erməni təxribatının qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul edilib. Nəticədə keçirilən hərbi əməliyyatlarla düşmən işğalında olan 2000 hektar ərazi azad olunub.

Ermənistanda məlum hakimiyyət dəyişikliyindən sonra məsələ yenidən tədqiqat obyektinə çevrilib və erməni parlamentində bu məsələni araşdıran ayrıca komissiya da yaradılıb. Bu komissiyanın fəaliyyəti və keçmiş hakimiyyət nümayəndələrinin aprel döyüşlərinə görə istintaqa cəlb edilməsi ölkədə yeni bir ziddiyyətin də əsasını qoyub. Xüsusən də hərbçilərin baş verənlərdən narazılığının böyüməsi müşahidə olunur. Bununla bağlı "1in.am" portalı yazır: "Bu yaxınlarda mətbuatda yayılan informasiyalara görə, dördgünlük aprel müharibəsinin baş verdiyi şəraiti öyrənmək üçün yaradılmış parlament komissiyasının fəaliyyəti Silahlı Qüvvələrin zabitləri, ön cəbhədəki komandirlər arasında narahatlıq yaradıb. Alt mətndə gizlənən mətləb odur ki, komissiya, necə deyərlər, günahkarları axtarır. Eyni zamanda komissiyanın başçısı və üzvləri bəyan edirlər ki, günahkarların axtarılması onların işi deyil. Onlar istəyirlər ki, nə baş verdiyini, həm insan, həm də mövqe itkilərinin bir hissəsinin qarşısını almağa imkan verə biləcək hansı səhvlərin buraxıldığını, hansı çatışmazlıqların olduğunu anlasınlar. Əlbəttə, qeyd edirlər ki, cinayət xarakterli nöqsanlar aşkar olunarsa, hüquq-mühafizə orqanları onlarla məşğul ola bilər.

Bununla bağlı zabit və komandirlərin narahat olmalarına əsas varmı? Əgər cinayət xarakterli nöqsanlar olubsa, əlbəttə, var. Təhlükəli problemlər haqqında isə hətta önсəki hakimiyyətin yüksək rütbəli məmurları da danışırdı. Ona görə də, cinayətkarcasına hərəkətsizlik varsa, bu hal tamdəyərli cinayət-hüquqi qiymətini almalıdır. Bu heç də kiminsə azadlıqdan məhrum edilməsi mənasına gəlmir, ancaq hadisənin başvermə şəraitinin tam açılmasına ehtiyacı ön cəbhədə olan zabit və komandirlərin özlərinin gələcək təhlükəsizlik şərtlərindən irəli gəlir. Belə ki, mənzərənin tam aydınlaşdırılması mümkün nöqsanların təkrar olunmasından maksimum sığortalayan önləyici addım olacaq. Nəhayət, anlamaq lazımdır ki, Silahlı Qüvvələrin hərbi idarəçilik zənciri necə işləyib və ya işləməyib. Xüsusən də o halda ki, bu zəncirin uyğunsuzluğu haqqında hətta dördgünlük aprel müharibəsinin iştirakçısı olan müxtəlif komandirlərin özləri də danışırdılar. Eyni zamanda burada, əlbəttə, onda problem yaranır ki, komissiya fəaliyyətə önсəki və indiki hakimiyyət, yeni və köhnə sistem arasında daxili siyasi qarşıdurmanın olduğu bir mərhələdə başlayır. Bu durum belə bir əhvali-ruhiyyəyə və ya qavramaya gətirib çıxarır və ya çıxara bilər ki, dördgünlük aprel müharibəsinin baş verdiyi şəraiti öyrənmək üçün yaradılmış parlament komissiyası yalnız bu mübarizədə yeni hakimiyyətin əlində olan alətlərdən biridir. Əlbəttə, bu planda hakimiyyət, demək olar, daimi rejimdə yetərli səy göstərməlidir ki, cəmiyyət qarşısında inandırıcı olsun. Göstərsin ki, şübhəsiz, komissiya siyasi formatlı olsa da, ən azı, burada daxili siyasi münasibətləri aydınlaşdırma motivi yoxdur. Əks halda, cari vəziyyətdə necə effekt verməsindən asılı olmayaraq, uzunmüddətli planda aprel müharibəsi mövzusu ilə belə oynama hakimiyyətə bumeranq effektilə zərbə vura bilər. Burada o şəraiti nəzərə almaq lazımdır ki, ordu, əlbəttə, həddindən artıq həssas orqanizmdir və siyasi məsələlərin bu sferaya daşınması heç vaxt uzunmüddətli planda hər hansı bir hakimiyyəti möhkəmləndirə bilməz, dövləti isə zəiflədə bilər". Erməni mediasının bu yazdıqları fonunda daha bir maraqlı açıqlama Ermənistanın "Aprel Döyüş Əməliyyatları İştirakçıları Birliyi" ictimai təşkilatının sədri, aprel döyüşlərinin iştirakçısı Razmik Qasparyandan gəlib. Onun dediklərindən belə bəlli olur ki, aprel döyüşlərində erməni tərəfinin silah-sursatla bağlı problemlərinin olması barədə deyilənlər həqiqəti əks etdirmir. Sadəcə, o vaxt Azərbaycan ordusu kifayət qədər güclü olduğundan məlum nəticələr üzə çıxıb.

Qasparyan bəzi hərbçilərin aprel döyüşlərini araşdıran İstintaq Komissiyasına qarşı imzatoplama fəaliyyətinə başlaması ilə bağlı verilən suala cavabında bildirib: "Mən başa düşdüyüm kimi, bunun siyasi tendensiyası var. Bizim siyasətlə heç bir əlaqəmiz yoxdur. Bu məsələdə siyasət var, biz burada yoxuq. Mən bu cür şərh edə bilərəm ki, Ermənistanda 2016-cı ilin aprelində əsgərin cəbhəni necə saxladığını müzakirə edə bilən insanlar yoxdur. Bunu heç kim müzakirə edə bilməz, bunu yalnız orada olan insanlar müzakirə edə bilər. İndi başqa suala cavab verim. Deyirlər ki, güllə və yanacaq olmayıb. Biri mən, Talışda olmuşam, orada belə bir problem olmayıb". Qasparyan aprel döyüşləri zamanı erməni hərbi qulluqçuların bellərlə mübarizə aparması xəbərini də təkzib edib: "Bu, sadəcə absurddur. Azərbaycanlılar dişlərinə qədər silahlanmış vəziyyətdə üzərimizə gəlibsə, ona qarşı necə bellə mübarizə apara bilərsən? Təkrar edirəm, belə bir şey olmayıb, ola da bilməz, bu absurddur. Bir az da siz təsəvvür edin, avtomat, pulemyot və ya daha ağır silaha qarşı belə mübarizə aparmaq necə mümkündür? Biz Rembo deyilik".

Ermənistanın "Qrapark" nəşri isə yazır ki, əslində, Ermənistan parlamentinin komissiyası da aprel döyüşlərində erməni tərəfinin hansısa çatışmazlıq üzündən məğlub olduğunu göstərən tutarlı bir fakt əldə edə bilməyib: "Aprel döyüşlərini araşdıran İstintaq Komissiyasının sədri Andranik Köçəryan da buna görə Paşinyan qarşısında çıxılmaz vəziyyətə düşüb. Bundan baş nazir çox qəzəblidir və bu fonda onun rəhbəri olduğu "Mənim Addımım" fraksiyasının deputatları Andranik Köçəryanı sıxışdırır. Onlardan biri olan Lilit Makunts Andranik Köçəryana xatırladıb ki, aprel döyüşlərini araşdıran parlament İstintaq Komissiyası 6 aylıq yaradılıb, bu 6 aydan 4-ü keçib, onlar isə indiyə qədər İstintaq Komissiyasının nə iş gördüyünü bilmirlər. Məlumatlara görə, bəzi şəxslər aprel döyüşlərini araşdıran İstintaq Komissiyasının işlərindən narazıdır və nəticə olmayacağı halda ictimai, hərbi çərçivələrdə yeni narazılıq dalğası yüksələ bilər. Andranik Köçəryan isə qeyd edib ki, işin başa çatdırılması üçün parlamentdən daha 6 ay müddət istənilməlidir". Amma qeyd edilir ki, istintaqa daha bir il vaxt verilsə belə, hansısa ciddi nəticələr əldə olunması inandırıcı görünmür. Əsas səbəb budur ki, həmin döyüşlərdə Azərbaycan kifayət qədər güclü tərəf olduğunu isbata yetirib və bu halda Paşinyan aprel döyüşlərindən hansısa formada keçmiş hakimiyyət təmsilçilərinə qarşı istifadə edə bilmir.

İndi erməni tərəfini qorxudan əsas məqamlardan biri budur ki, Dağlıq Qarabağ münaqişəsi yenidən hərbi müstəviyə keçəcəyi təqdirdə Azərbaycan aprel döyüşlərini daha geniş miqyasda təkrarlayacaq. Bu isə Ermənistanın daha böyük məğlubiyyətlərə düçar olması anlamına gəlir. Məhz həmin döyüşlərdən sonra erməni cəmiyyəti daha aydın şəkildə gördü ki, hakimiyyət onlara yalan sırımaqla məşğul olub. Belə ki, Ermənistan hakimiyyəti ordunun məğlubedilməzliyindən bəhs edirdisə, bunun mif olduğu tam aydınlığı ilə üzə çıxdı. İndi bunlarla bağlı erməni analitik İqor Muradyan bildirir ki, aprel döyüşlərindən sonra Ermənistan ordusunda müsbətə doğru hansısa ciddi yenilik yoxdur: "Deməli, bu əməliyyatlar təkrarlansa, Ermənistanın yenə eyni nəticələrlə üzləşməsi qaçılmaz olacaq". Digər tərəfdən, bunlar fonunda ermənilərə o da bəlli olur ki, Azərbaycan ərazilərinin işğal altında saxlanması Ermənistana, onun xalqına bundan sonra da fəlakətdən, yoxsulluqdan başqa heç nə gətirməyəcək. Xüsusən də aprel döyüşlərinə bənzər şəkildə hərbi əməliyyatların yenilənməsi düşmən ölkəni daha ağır bir duruma salacaq. Mövcud Ermənistan hakimiyyəti Qarabağ məsələsində müsbətə doğru hansısa addım atmasa, aprel dərslərinin təkrarlanması artıq qaçılmaz olacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Rusiya və Ermənistan arasında getdikcə gərginləşən münasibətlərin perspektivi, bunun nəticələrinin İrəvanın regionda mövqeyinə necə təsir edəcəyi xüsusi maraq doğuran məqamlardan birinə çevrilib. Erməni mediası yazır ki, baş nazir Nikol Paşinyanın Rusiya siyasəti birmənalı şəkildə iflasa uğrayıb və ORSIS şirkəti ətrafında baş verənlər də bunun növbəti təzahürü qismində çıxış edib.**

# Kreml Paşinyanı daha sərt şəkildə əzməyə başlayır - ORSIS, Cənubi Qafqaz Dəmir Yolları məsələsi, qaz 200 dollar...



Xatırladaq ki, Rusiyanın ORSIS şirkətinin iştirak etdiyi silah tədarükü üzrə tenderi pozduğuna görə Moskva İrəvana etiraz notası ünvanlayıb. Etiraz notasında deyilir ki, ORSIS firmasının müraciəti heç bir əsas olmadan rədd edilib və erməni tərəfi onu bu iş üçün uyğun olmayan tədarükçülər siyahısına daxil edib. Sənəddə müdafiə naziri Tonoyanın məsələni araşdırması tələb olunur. Amma erməni mediası yazır ki, ORSIS şirkəti problemləri göstərən adi epizodlardan biridir. İndiki gedişlə Rusiyanın iqtisadi müstəvidə Ermənistanı daha çox əzməyə başlaması proqnozlaşdırılır. Bunlardan biri "Rusiya Dəmir Yolları" şirkətinin Ermənistanı tərk etməsi ilə bağlıdır.

Xatırladaq ki, bu günlərdə Ermənistanın Gümrü şəhərində ölkənin dəmir yollarını idarə edən "Cənubi Qafqaz Dəmir Yolları" QSC-nin maşinistləri tətil edib. "Cənubi Qafqaz Dəmir Yolları" QSC "Rusiya Dəmir Yolları" şirkətinin 100 faizlik törəmə şirkətidir və Ermənistanda dəmir yollarının idarəsi ilə məşğul olur. Tətildə maşinistlər əmək haqlarının 30 faiz artırılmasını tələb edirlər. Ermənistanın "jamnyus" portalı yazır ki, tətildə iştirak etmiş lokomotiv deposunun maşinistləri maaşlarının 30 faiz artırılmasını tələb ediblər və şirkətdən sonda müsbət cavab alıblar. Amma əslində vəziyyət tamam fərqlidir: "Dəmir yolu işçilərinin tətili üzündən oktyabrın 22-dən etibarən qatarların hərəkəti, o cümlədən neft məhsullarının və taxılın daşınması tamamilə dayandırılmışdı. "Rusiya Dəmir Yolları"nın rəhbərliyi tətilin üçüncü günündə etiraz edən dəmiryolçularla görüşdü. Görüşdən sonra şirkətin rəhbərliyi məlumat yaydı və həmin məlumatda deyilir: 2019-cu ilin 9 ayı ərzində yüklərin və sərnişinlərin daşınması həcmi xeyli yüksəlib və bu, "Cənubi Qafqaz Dəmir Yolları"na imkan verir ki, maşinistlərin maaşlarını orta hesabla 19 faiz artırsın. Eyni zamanda, dayanmalara görə şirkət 140 milyon dram (təxminən 290 min dollar) gəlirini itirib. Bu o deməkdir ki, şirkətin illik planları yerinə yetirməsi çətin olacaq və bu, öz növbəsində, bütün əməkdaşların maaşlarının artırılmasını şübhə altında qoyur.

"Cənubi Qafqaz Dəmir Yolları" əməkdaşlarının tətili "Rusiya Dəmir Yolları" ətrafında baş verən yeganə intriqa deyil. Artıq məlumdur ki, şirkət Ermənistan hakimiyyəti ilə müqaviləyə xitam verməyə hazırlaşır. Halbuki, Ermənistan dəmir yollarının "Rusiya Dəmir Yolları"nın konsessiya idarəçiliyinə verilmə müddəti 30 il təşkil edir, yəni onun sonuna hələ 19 il qalıb. Amma ruslar Ermənistandan gedir. Bu qərara səbəb Ermənistanın "Cənubi Qafqaz Dəmir Yolları" şirkətinin işinə maneə yaratmasıdır. Güman edildiyinə görə, söhbət sonuncuya qarşı cinayət işindən gedir. Şirkətin ofisində bu ilin avqust ayında vergilərin ödənilməməsi şübhəsi ilə axtarışlar keçirilib. İstintaq komitəsi şirkətin son 10 il ərzində fəaliyyətinin yoxlanmasını davam etdirir və müqavilə üzrə vəd edilmiş investisiyaların effektivliyini nəzərdən keçirir. Bunlar isə rusları narazı salır. Rusiyanın Ermənistan dəmir yollarının istismarı ilə bağlı güzəştli müqavilədən imtina etmə ehtimalı Moskvanın Ermənistan kommunikasiyalarına geopolitik marağını itirməsilə bağlı ola bilər. Hazırda regionda durum və Rusiyanın öncəlikləri 2006-cı illə müqayisədə köklü şəkildə dəyişib və mümkündür ki, Moskva artıq Ermənistan dəmir yollarına görə məsuliyyət daşımaq istəmir. Rusiya hələ də Ermənistanda çoxlu aktivə sahibdir. Lakin regiona çıxış olmadan, bu aktivlər çox vaxt Rusiya üçün bir yük olur.

Görünür, Kremldə hesab edirlər ki, "öz üzərlərindən Ermənistan dəmir yollarının yükünü atmağın vaxtı çatıb". Belə olarsa, Ermənistan dəmir yollarından yalnız dəmir relslər qalacaq, çünki sürmə avadanlıqları, qatar ehtiyatları Ermənistan tərəfinə aid deyil, hamısı ruslar tərəfindən gətirilib. Elə erməni politoloq Robert Qevondyan da məsələnin onlar üçün acı sonluğa gətirib çıxaracığını ehtimal edir: "Rusiya ilə münasibətlər pisləşir. Ölkədə isə Rusiyaya münasibətdə fərqli əhval-ruhiyyə hakimdir. Ermənistan daxilindəki hər hansı bir parçalanma bizim mövqeyimizi zəiflədir. Burada nəzərə almaq lazımdır ki, bizim Rusiya himayəsinə ehtiyacımız var. Həmkarım Mher Sedrakyanın dediyi kimi, Ermənistan hər halda kiminsə çəkməsi altında olmalıdır və hansının bizə ən çox sərf etdiyini seçməliyik. Lakin indiki hakimiyyətin hazırkı siyasəti problemlidir və Ermənistanın dağılmasına rəvac verir. Çoxlarının da fikrincə, Ermənistan kiminsə çəkməsi altında olmalıdır. İndiki halda Rusiya daha yaxşı seçimdir".

Qevondyan bildirib ki, Moskvanın qəzəbi təkcə dəmir yolu məsələsində özünü göstərməyib, qazın qiyməti ilə nəticələrini büruzə verəcək. Ermənistanın "Jamanak" nəşri də yazır ki, Moskva qaz təzyiqlərini işə salacaq: "Hazırda isə Rusiya Ermənistana qazı min kubmetrə görə 165 dollara satır. Amma qiymətlər artacaq. Bizim məlumatımıza görə, Rusiya tərəfi 1 yanvar 2020-ci ildən etibarən qaz qiymətlərini 200 dollara qədər artırmaq niyyətindədir". O da bildirilir ki, bu halda Ermənistan tərəfinin həmin qiymətə qaz alması müşkülə çevriləcək və belə vəziyyət rus qazının vintilinin bağlanmasına, Ermənistanın isə daha acınacaqlı duruma düşməsinə gətirib çıxara bilər. Eləcə də Rusiya silahlarının Ermənistan üçün yolunun bağlanması, bu ölkəyə qoyulan sərmayələrin geri çəkilməsi istisna olunmur. Hər halda, baş verənlər Kremlin Paşinyanı daha sərt şəkildə əzməyə başlayacağını istisna etmir.

***Nahid SALAYEV***

**Ermənistanın Baş naziri Nikol Paşinyan Avrasiya Hökumətlərarası Şurasının növbəti iclasında iştirak etmək üçün Moskvaya gedib. Ancaq Paşinyan Moskva səfəri zamanı bu dəfə də Rusiya Prezidenti Vladimir Putinlə görüşə bilməyib.**

# Paşinyan bu dəfə də Moskvada Putinin qəbuluna düşə bilmədi...



***Arzuxan Əlizadə:*** *"Bu, tərəflər arasında bir sıra məsələlərlə bağlı fikir ayrılıqlarının qalmasından xəbər verir"*

Tədbir çərçivəsində Paşinyan Rusiya Baş naziri Dmitri Medvedyevlə görüşüb. Medvedyev Şuraya sədrlik etdiyi üçün Ermənistana təşəkkür edib: "Düşünürəm ki, sədrlik özünəməxsus sənətdir, çünki müəyyən vəziyyətlər ola bilər. Bu, ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlıq, investisiya, əməkdaşlıq məsələlərini müzakirə etmək üçün yaxşı bir səbəbdir. Bəzi məsələlər müzakirə olunmalıdır".

Öz növbəsində, Paşinyan Şurada Ermənistanın sədrliyinin sona çatdığını deyib: "Sədrliyimiz səmərəli oldu. Bu il Aİİ ilə İran arasında bir müqavilə qüvvəyə mindi".

Göründüyü kimi, Putin, əvvəlki kimi, Paşinyanla görüşməyə həvəsli deyil. Belə olmasaydı, tərəflər arasında, ən azından, yarım saatlıq bir görüş olardı.

Adətən bu kimi tədbirlər dövlət başçılarının ikitərəfli görüşləri üçün bir vasitə rolunu oynayır. Nəzərə alsaq ki, Ermənistan həm Avrasiya İqtisadi İttifaqında, həm də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsil olunur, o zaman tərəflər arasında problemsiz görüşlər keçirilməlidir. Ancaq, bəlli olduğu kimi, Putinlə görüşə bilməyən Paşinyan yenə qapı arxasında qaldı.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, bu, tərəflər arasında bir sıra məsələlərlə bağlı fikir ayrılıqlarının qalmasından xəbər verir: "Məlum olduğu kimi, Aİİ-nin İrəvanda keçirilən tədbiri Paşinyan üçün uğurlu olmadı. Rusiya Prezidenti Vladimir Putin Aİİ xatirinə İrəvana getdi. Paşinyan il yarımdır Baş nazirdir, amma hələ də Moskvaya rəsmi səfər etməyib. O cümlədən, Putin də Ermənistana analoji səfər etməyib. Bir sıra məsələlərlə bağlı Paşinyan Putinin tələblərini yerinə yetirmir. Putinin Paşinyandan başlıca xahişi sabiq prezident Robert Köçəryanın həbsdən azad edilməsi ilə bağlı idi. Ancaq Paşinyan onun bu istəyini yerinə yetirməkdən imtina etdi. Rusiyanın Ermənistandakı iqtisadi maraqlarına yönəlik müəyyən proseslər gedir. Paşinyan Baş nazir olandan bəri Qərbə yönəlik reveranslar edir və bütün bunlar Rusiya Prezidentini qane etmir.

*"...Paşinyan Putinin tələblərini yerinə yetirmir"*

**Rusiya rəsmiləri və hökumətin maraqlarından çıxış edən bir sıra siyasətçilər dəfələrlə bunu bəyan ediblər. Bütün bunlar ondan xəbər verir ki, Rusiya hakimiyyəti Paşinyanın apardığı siyasətə səmimi yanaşmır. Bu səbəbdən Paşinyanın Rusiyaya səfərləri məhdud çərçivədə görüşlərdən o tərəfə keçə bilmir".**

***Vidadi ORDAHALLI***

---

**Prezident Donald Tramp bazar günü səhər Ağ Evdə keçirdiyi mətbuat konfransında İŞİD lideri Əbu Bəkr əl-Bağdadinin ABŞ hərbi qüvvələrinin Suriyada xüsusi əməliyyatı nəticəsində öldürüldüyünü təsdiq edib. ABŞ Prezidenti əməliyyatın detalları haqda açıqlama verib:**

# Bağdadinin ölümü, Rusiyanın şübhələri, ABŞ-ın cəsədi dənizə tullamaq fikirləri...



***Zamin Axundov:*** *"Rusiya Suriyada, faktiki olaraq, əldə etdiyi qalibiyyətin kiminsə adına yazılmasını istəmir"*

"Birləşmiş Ştatlar dünyada bir nömrəli terrorçu lider üzərində ədaləti bərqərar etdi. Bağdadi ABŞ hərbi qüvvələrinin Suriyanın şimal-qərbində keçirdiyi əməliyyatı nəticəsində öldürülüb". Tramp Bağdadinin "ağlayıb, qışqıraraq" yeraltı tunel vasitəsilə qaçmağa çalışdığını bildirərək, onun üzərindəki partlayıcı kəməri işə saldığını və bunun nəticəsində üç uşağın da öldüyünü deyib: "Bağdadi qəhrəman kimi ölməyib. O, qorxaq kimi ölüb". ABŞ Prezidenti Bağdadinin öldürülməsi əməliyyatını "olduqca uğurlu bir əməliyyat" adlandırıb.

Birləşmiş Ştatlar 2016-cı ildə Bağdadinin ələ keçirilməsinə kömək göstərə bilən informasiyanın verilməsi üçün 25 milyon dollar məbləğində mükafat elan etmişdi. Belə yüksək mükafat bundan başqa, yalnız "əl-Qaidə" lideri Ayman Əl-Zəvahiri üçün vəd edilib.

ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Robert Obrayn da bildirib ki, "əl-Qaidə" terror təşkilatının lideri Üsamə bin Ladenin meyitinin qalıqları kimi, İŞİD liderinin də meyitinin qalıqları dənizə atıla bilər. Qeyd edək ki, Üsamə bin Laden 2011-ci ildə ABŞ-ın həyata keçirdiyi xüsusi əməliyyat nəticəsində öldürülüb. Onun meyitinin qalıqları Ərəbistan dənizinə atılıb.

Rusiya Müdafiə Nazirliyi isə ABŞ-ın İŞİD lideri Əbu Bəkr əl-Bağdadinin Suriyada öldürülməsi bəyanatına şübhə ilə yanaşıb. Nazirliyin sözçüsü İqor Konaşenkov Amerikanı bununla bağlı fakt göstərməyə çağırıb. Onun sözlərinə görə, Suriya hökumətinin nəzarətində olmayan bütün torpaqlara "əl-Qaidə"nin şöbəsi olan "Nusra" nəzarət edir və ən böyük rəqibi olan İŞİD-in hər hansı üzvünü gördüyü yerdə qətlə yetirir: "Bu səbəbdən İŞİD liderinin "əl-Qaidə"nin nəzarətindəki torpaqlarda olması şübhəlidir və ABŞ buna dair sübutlar göstərməlidir. Bundan başqa, əməliyyatlarda iştirak edən dövlətlərin fərqli açıqlamalar verməsi də bəzi sual işarələri yaradır və şübhələri artırır".

Göründüyü kimi, dünyanın iki böyük dövləti arasında Bağdadinin ölümü ilə bağlı yayılan xəbər ətrafında ciddi fikir ayrılığı yaranıb. Rusiya, faktiki olaraq, ABŞ-ı yalan informasiya ilə manipulyasiyada təqsirləndirir. İŞİD liderinin ölümü ilə bağlı supergüclər arasında bu fikir ayrılığı nədən yarana bilər?

Politoloq Zamin Axundov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, burada bir sıra maraqlı detallar mövcuddur: "Tramp ABŞ prezidentləri sırasında Kennedidən sonra ikinci ölkə başçısıdır ki, ölkə daxilində bu dərəcədə əks təsirə məruz qalıb. Söhbət həm biznes, həm də siyasi elitadan gedir. Demək olar ki, bu güclərin hamısı Trampın xarici siyasət kursuna qarşıdır. Daxili siyasətlə də bağlı onun sıxıntıları az deyil. Buna baxmayaraq, Tramp sırf ABŞ maraqlarına cavab verən plüralist xarici siyasət kursu yürütməkdə maraqlıdır. Vəziyyət o həddə çatıb ki, Nelsi Pelosinin rəhbərliyi altında Trampla bağlı impiçment qərarının həyata keçirilməsinə çalışıldı. Təbii ki, bütün bu sıxıntıların fonunda, Tramp ciddi manevrlər etməlidir. ABŞ-ın xarici siyasətindəki uğurlarını faktlarla təqdim etməkdə maraqlı olmalıdır. Bu açıqlamanın Tramp tərəfindən xüsusi sevinclə təqdim olunması göstərir ki, Bağdadinin ölümünə nail olmağı ABŞ dövlət başçısı göstərilən fəaliyyətin məntiqi sonu kimi dəyərləndirməyə çalışır. O, eyni zamanda, bunu koalisiyanın uğuru kimi deyil, yalnız ABŞ-ın nailiyyəti kimi cəmiyyətə təqdim edir. Rusiya rəsmi səviyyədə bu məlumatı təkzib edir. Bir neçə faktla əsaslandırır ki, İŞİD lideri həmin ərazidə ola bilməz. Çünki həmin ərazilər İŞİD-lə konfrantasiyada olan güclərin nəzarətindədir. Rusiya, eyni zamanda, koalisiya dövlətlərinin ABŞ-dan fərqli açıqlamalar verdiyini bildirir. Qeyd edim ki, 2018-ci ilin əvvəllərində Rusiyanın hava dəstəyilə həmin ərazilərdə İŞİD tamamilə zərərsizləşdirilib. Rusiya mənbələri bildirirlər ki, həmin zaman Bağdadinin ölməsi ilə bağlı faktlar var. Onda isə haqlı sual yaranır: Bağdadi ikinci dəfə necə oldu dünyasını dəyişdi? Tramp çalışır ki, qarşıdan gələn seçkilərə kimi özünün reputasiyasını qaldırsın.

*"Tərəflər geosiyasi üstünlüyə hesablanmış ritorika ilə bağlı mübarizə aparırlar"*

Rusiya isə Suriyada, faktiki olaraq, əldə etdiyi qalibiyyətin kiminsə adına yazılmasını istəmir. Onlar bununla demək istəyirlər ki, İŞİD-in kökünü Suriyada onlar kəsib və Bağdadi də ruslar tərəfindən öldürülüb. Trampın bu məsələ ilə öz maraqlarına uyğun manipulyasiya etməsi Rusiyanın Suriyadakı maraqları ilə ziddiyyət təşkil etdiyi üçün, belə mənzərə yaranıb. Tərəflər geosiyasi üstünlüyə hesablanmış ritorika ilə bağlı mübarizə aparırlar".

***Məhəmmədəli QƏRİBLİ***

**Ölkə iqtisadiyyatında həyata keçirilən islahatlar qarşıdakı dövr ərzində Azərbaycanı iqtisadi müstəvidə daha güclü mövqeyə çıxarmaqla yanaşı, onun maliyyə durumuna da əhəmiyyətli dərəcədə təsir göstərəcək. Hər halda, ekspertlərin böyük əksəriyyətinin proqnozları məhz bu istiqamətdədir.**

# Azərbaycanın qarşısında manatı güclənməkdən "necə qoruyaq" problemi...




Belə görünür ki, Azərbaycanın enerji ilə yanaşı, gələn il ərzində qeyri-neft sektoru üzrə də ixrac etdiyi məhsulların həcmində əhəmiyyətli artım olacaq. Bu isə ölkəyə daxil olan valyutanın miqdarını xeyli artıracaq.

Həmçinin bu və gələn il ərzində Azərbaycanın turizm üzrə gəlirlərinin 3-4 milyard dollar arasında dəyişməsi, belə vəziyyətdə isə manata qarşı təzyiqlərin daha da güclənməsi gözlənilir. Yəni baş verənlər manatın kursunun güclənməsi istiqamətində əlavə təzyiqlər yaradır. Artıq manat devalvasiya yox, revalvasiya, yəni məzənnənin yenidən qaldırılması risqi ilə üzüzədir. Amma görünən budur ki, hökumət indiki şəraitdə manatın məzənnəsinin güclənməsində maraqlı deyil və ilk növbədə qeyri-neft sektoru üzrə ixracın qorunması məqsədilə, ən azından, məzənnənin indiki həddə qalmasında maraqlıdır. Bunu Mərkəzi Bankın sədri Elman Rüstəmovun son açıqlamaları da təsdiq edir: "Bu gün hesab edirik ki, revalvasiya Azərbaycan iqtisadiyyatı üçün yararlı deyil, zərərli ola bilər". Onun sözlərinə görə, əsas istiqamətlərdən biri iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafıdır. Revalvasiya isə buna mane ola bilər: "Düşünürük ki, cari ildə manatın məzənnəsinə təsir edə biləcək fundamental amil yoxdur. Növbəti ilə də nikbin baxırıq. Yəgin ki, gələn il də milli valyutanın məzənnəsini idarə edə biləcəyik. Bizim əsas istiqamətlərimizdən biri iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafıdır".

Bu arada qeyd edək ki, manatın məzənnəsinin qorunması üçün də hansısa problem yoxdur. Əksinə, hökumətin valyuta ehtiyatlarının sürətli artımı əlavə imkanlar yaradır. Xatırladaq ki, Azərbaycanın valyuta ehtiyatları bu il oktyabrın 1-nə 48 milyard 558,5 milyon dollar təşkil edib. Bunun 87,6%-i və yaxud 42 milyard 524,4 milyon dolları Azərbaycan Dövlət Neft Fondunun (ARDNF), 12,4%-i, yaxud 6 milyard 34,1 milyon dolları isə Mərkəzi Bankın payına düşüb. Bu ilin üçüncü rübündə ölkənin valyuta ehtiyatları 155,4 milyon dollar və yaxud 0,3% artıb. Belə ki, ARDNF-in valyuta ehtiyatlarında 60,7 milyon dollar və yaxud 0,15%, baş bankın valyuta ehtiyatlarında isə 94,7 milyon dollar və yaxud 0,15% artım olub. Son 1 ildə isə ölkənin valyuta ehtiyatları 4 milyard 36,3 milyon dollar və yaxud 9,1% artıb. Gələn il ərzində TAP kəmərinin də işə düşməsi ilə valyuta ehtiyatlarında artımın davam etməsi gözlənilir. Xüsusən də ARDNF-in valyuta ehtiyatlarında daha dinamik artım gözlənilir. Hazırda fondun malik olduğu vəsaitin 54,7%-i dollarda, 33,8%-i avroda, 4,9%-i isə ingilis funt-sterlinqində yerləşdirilib. Başqa sözlə, üç əsas xarici valyutanın investisiya portfelində payı 93,4% təşkil edir. Yerdə qalan vəsait digər valyutada saxlanır. Bundan əlavə, qurumun ehtiyatında 100 ton qızıl var. Bu bölgüdən görünür ki, fond kifayət qədər dollar və valyuta ehtiyatına malikdir. Məhz bu da manatın məzənnəsinin istənilən qaydada idarə olunmasına lazımi şərait yaradır.

Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, hazırkı vəziyyətdə manatın bahalaşması istiqamətində də təzyiqlər artır. İlk növbədə manatın möhkəmlənməsinə təsir edən əsas faktor neftin dünya bazarında bahalaşmasıdır və bu bahalaşma ölkəyə daxil olan valyutanın həcmini artıran əsas faktordur. Hazırda Azərbaycan neftinin qiyməti 67 dollara çatır. Bu fonda ölkənin strateji valyuta ehtiyatlarının həcmində də əhəmiyyətli artım qeydə alınır. Digər tərəfdən, neftin qiymətinin qalxması nəticəsində şirkətlərin dövlət büdcəsinə ödəyəcəyi verginin həcmi də artır ki, bunun qarşılığında xarici valyutanı kompensasiya edərək bazara daxil olan valyutanın həcmini artıra bilirlər. Eləcə də uçot dərəcəsinin səviyyəsi, bankların manatla kreditləşməyə nisbətən zəif təmin edilməsi və bu kimi digər məsələlər manatın xeyrinədir. Bu isə onu deməyə əsas verir ki, hər hansı bir kənar müdaxilə və inzibati təsir olmasa, manatın bahalaşması dinaiik xarakter alacaq. Özü də nəzərə almaq lazımdır ki, gələn ildən Azərbaycan qazının da dünya bazarında satış həcmi artacaq və bu da ölkəyə yeni valyuta axınını təmin edəcək. Amma bu vəziyyətdə hökumət üçün prioritet bütün təsirlərin Mərkəzi Bankın timsalında neytrallaşdırılması, manatın əhəmiyyətli səviyyədə möhkəmlənməsinin qarşısının alınmasıdır. Çünki yerli istehsalda rəqabətin artırılması, ixracın stimullaşdırılması kimi məsələlər indiki halda manatın möhkəmlənməsinin sərfəli olmadığını üzə çıxarır.

Burada onu da xatırladaq ki, hökumət artıq ölkədə postneft dövrünün başlandığını elan edib və onun bu gün apardığı sürətli iqtisadi islahatlar mümkün qədər qısa zaman kəsiyində ölkə iqtisadiyyatının real sektora transformasiya edilməsini hədəfləyib. Bu islahatlar çərçivəsində güclü manat müəyyən problemlər yarada bilər. Amma o da faktdır ki, manatın möhkəmlənməsi istiqamətində təzyiqlər artsa, hökumət milli valyutanı tədricən möhkəmləndirəcək. Bu fonda manatın möhkəmlənməsinin ilk növbədə dollara nisbətdə özünü daha qabarıq göstərməsi proqnozdaşdırılır.

Düzdür, 2020-ci il üçün də dövlət büdcəsində manat-dollar məzənnəsinin 1.7 səviyyəsində olması nəzərdə tutulur. Maliyyə Nazirliyinin Azərbaycanın 2020-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərində məhz bu hədd nəzərə alınıb. Bundan başqa xatırladaq ki, gələn il üçün büdcədə neft qiyməti 55 dollardan götürülüb. Amma baş verən bir çox hadisələr, xüsusən də OPEC+ ölkələrinin fəaliyyəti neftin qiymətinin, ən azından, indiki həddə qalacağını göstərir. Deməli, Azərbaycanın neft gəlirləri yenə nəzərdə tutulduğundan yüksək olacaq və bu da manata əlavə təzyiq yaradan faktorlardan sayılır. Qeyri-neft sektoru üzrə ixrac artımı da burada öz rolunu oynayır. Bu səbəbdən manatın gələn il ərzində, cüzi də olsa, revalvasiyası mümkün sayılır.

***Tahir TAĞIYEV***

# İstefa şayiəsi yayanlara Elman Rüstəmovun cavabı - uçot dərəcəsini 7,75-ə endirdim...

**Məlum olduğu kimi, oktyabrın 25-də Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti uçot dərəcəsinin 8 faizdən 7,75 faizə endirilməsi haqda qərar qəbul edib. Faiz dəhlizinin yuxarı və aşağı hədləri uçot dərəcəsinə ±1.75 faizlik diapazonda müəyyən edilib.**



***Rəşad Həsənov:** "Uçot dərəcəsilə bağlı Mərkəzi Bankın qəbul etdiyi qərarın bazarda ciddi effekti olmayacaq"*

Məlumat üçün bildirək ki, uçot dərəcəsi (faiz dərəcəsi) pulun dəyəri rolunu oynayır. Pula olan tələb də faiz dərəcəsindən asılı olaraq dəyişir. Məsələn, faiz dərəcələri azaldığı zaman kreditlərə tələb artır, insanların banklara əmanət qoymaq meyli isə azalır. Bu zaman iqtisadi subyektlər daha çox kredit almağa meyl göstərirlər, əllərində olan nağd pulu isə banklarda aşağı faizlərlə saxlamaqdansa xərcləməyə çalışırlar. Nəticədə məcmu tələb artır ki, bu da həm iqtisadi artıma və məşğulluğa, həm də inflyasiyaya artırıcı təsir göstərir.

Faiz dərəcələri artdıqda isə kreditlərə tələb azalır, insanların banklara əmanət qoymaq meyli güclənir. Çünki əmanətlər üzrə faizlər nağd pulu saxlamağın "alternativ xərci"dir. Nəticədə iqtisadi subyektlər daha az kreditlər alırlar və qazandıqları pulun çox hissəsini xərcləməyərək yığıma yönəldirlər. Beləliklə də məcmu tələb daralır və inflyasiyanın azalması üçün şərait yaranır.

Maraqlıdır, uçot dərəcəsinin azalması kredit faizlərinə təsir edəcəkmi?

İqtisadçı-ekspert Rəşad Həsənov bildirdi ki, uçot dərəcəsinin 8 faizdən 7,75 faizə endirilməsi faiz dərəcələrinin azaldılmasına təsir göstərməyəcək: "Məlumdur ki, uçot dərəcələri maliyyə bazarlarının idarə edilməsi, ölkənin pul siyasəti, eyni zamanda, iqtisadiyyatın idarə edilməsində də mühüm alətlərdən biridir. Təəssüf ki, ölkəmizdə bu alət işləmir. Bu hətta rəsmi səviyyədə Mərkəzi Bank tərəfindən də etiraf olunub. Çünki Azərbaycanda banklararası bazar o səviyyədə inkişaf etməyib. Həmçinin, mərkəzləşdirilmiş kreditlərin bankların xüsusi çəkisində yeri çox aşağıdır. Bu da Mərkəzi Bank tərəfindən uçot dərəcəsinin azaldılmasına birbaşa olaraq təsirləri zəiflədib.

> *"Uçot dərəcəsinin 8 faizdən 7,75 faizə endirilməsi faiz dərəcələrinin azaldılmasına..."*

Bilirsiniz ki, bu proses 2017-ci ildən başlayıb. Burada daha çox təsir Mərkəzi Bankın keçirdiyi depozit hərraclarında müəyyənləşən faizlər olub. Depozit hərraclarında faizlərin mərhələli şəkildə azalması bankların növbəti dövrdə vəsaitləri Mərkəzi Bankda yerləşdirməsində marağını azaldır. Son nəticədə onlar izafi aktivləri real iqtisadiyyatda yerləşdirməklə bağlı qərar qəbul edə bilərlər. Beləliklə də daha aşağı faiz və güzəştli şərtlərlə bazara vəsaitlər daxil ola və bankların kredit siyasəti nisbətən yumşala bilər. Faktiki olaraq, uçot dərəcəsilə bağlı Mərkəzi Bankın qəbul etdiyi qərarın bazarda ciddi effekti olmayacaq".

***Günel CƏLİLOVA***

# Bakının böyük plakatlarında enerji içki reklamları gündən-günə çiçəklənir

**Tərkibində müxtəlif bioloji aktiv maddələr - kofein, guaran cövhəri, jenşen, amin turşusu taurin, teobromin və kakao teofillin alkaloidləri, eləcə də vitamin və karbohidratlar olan spirtsiz və ya zəif spirtli sərinləşdiricilər enerji içkilərdir. Energetik istehsalçılarının iddialarına görə, bu növ içkilərin fiziki və əqli iş qabiliyyəti, məhsuldarlığa stimullaşdırıcı təsiri var.**



***Azərbaycan Dövlət Reklam Agentliyi - Hüseyn Azəri:** "Qanunvericilikdə enerji içkilərinin reklamının qadağan olunması ilə bağlı hər hansı məhdudiyyət yoxdur"*

Gənc nəsil arasında yeni növ içkinin belə sürətlə yayılması dünya elmi ictimaiyyətində onların təhlükəsi barədə qorxuları artırıb. Zaman-zaman mətbuatda yeniyetmələrin ölümünün yüksək kofein konsentrasiyalı energetiklərin qəbulundan, həmçinin, onların spirtli içki ilə qarışdırılmasından sonra baş verdiyi iddialarının yer alması bu qorxunu daha da möhkəmləndirdi. Bunun üçün təşkil olunmuş tədqiqat qrupunun əldə etdiyi nəticələr göstərdi ki, narahatlıq əsassız deyil. Tədqiqatçılar enerji içkilərinin orqanizmə təsirinin öyrənilməsi ilə bağlı dünyanın bütün nəşrlərində dərc olunan məlumatları təhlil ediblər, alınan nəticələr energetiklərlə bağlı iki əsas risqin kofein və spirt olduğunu təsdiqləyib. Baxmayaraq ki, kofein konsentrasiyasının səviyyəsi bankadakı energetikə nisbətən bəzi qəhvə markalarında yüksəkdir, içkidən fərqli adətən qəhvəni yavaş-yavaş və qaynar içirlər, bu da ekspertlərə görə, kofein intoksikasiyası (zəhərlənmə) risqini azaldır.

Azərbaycanda bu içkilərin pərakəndə satışı mövcuddur. Zərərli olduğu deyilsə də, bu gün televiziyalarda, onlayn sferada, hətta küçələrdə belə enerji içkilərinin reklamına rast gəlinir. Ünerji içkilərinin geniş şəkildə reklamını şəhərin istənilən ərazisində müşahidə etmək olar. Belə ki, əhalinin sıx olduğu küçələrdə asılmış plakatlarda enerji içkiləri reklam olunur. Maraqlıdır, enerji içkilərinin reklamına hansısa qadağa niyə tətbiq edilmir?

Qeyd edək ki, bu məsələ bir müddət öncə parlamentdə müzakirəyə çıxarıldı. Millət vəkilləri enerji içkilərinin reklamının qadağan olunmasının vacib olduğunu bildiriblər.

> *"...yetkinlik yaşına çatmayan şəxslərdən istifadə olunmaqla hazırlanan reklamların..."*

Onu da bildirək ki, 2020-ci il yanvarın 1-dən ölkəmizdə "Enerji içkilərinə dair müvəqqəti sanitariya normaları və qaydaları" qüvvəyə minəcək. Yeni qaydalara əsasən, ölkə ərazisində enerji içkilərinin istehsalı və idxalı ilə məşğul olan sahibkarlıq subyektləri sənəddə əksini tapan norma və qaydalara uyğun olaraq, öz fəaliyyətlərini 2020-ci il 1 yanvar tarixindən etibarən təşkil etməlidirlər. Həmçinin, yanvarın 1-dən 18 yaşdan aşağı şəxslərə enerji içkilərinin satışı sözügedən sənədlə qadağan olunur. Bu məqsədlə Azərbaycanda məktəb və uşaq bağçalarının yaxınlığında bu tip içkilərin satışına icazə verilməyəcək.

Məsələ ilə bağlı fikir bildirən Azərbaycan Dövlət Reklam Agentliyinin mətbuat katibi Hüseyn Azərinin sözlərinə görə, qanunvericilikdə enerji içkilərinin reklamının qadağan olunması ilə bağlı hər hansı məhdudiyyət yoxdur: **"Bu baxımdan ADRA həmin reklamların açıq məkanda yayımlanmasına qadağa qoya bilmir. Bununla yanaşı, agentlik tərəfindən yetkinlik yaşına çatmayan şəxslərdən istifadə olunmaqla hazırlanan reklamların açıq məkanda yayımlanmasının qarşısının alınması diqqətdə saxlanır. Amma bu yalnız tövsiyə xarakteri daşıyır və qanunvericilik yol vermədiyinə görə burada hər hansı məhdudiyyətdən söhbət gedə bilməz".**

***Günel CƏLİLOVA***

# Azərbaycanda müdhiş təhsil cinayətləri - rayonlarda əksər universitetlərin saxta möhürləri və saysız saxta diplomların saxlandığı anbarlar ələ keçirildi

**Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, bəzi hallarda ayrı-ayrı şəxslər və ya belə şəxslərdən ibarət təşkilatlanmış qruplar tərəfindən vətəndaşların məlumatsızlığından, inam və etibarından sui-istifadə etmə yolu ilə müəyyən pul məbləğləri müqabilində onların Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzindən kənar mövcud qanunvericiliklə nəzərdə tutulmuş prosedurlara zidd vasitələrlə müxtəlif təhsil müəssisələrinə qəbul edilmələri və təhsilin tamamlanmasını təsdiq edən sənədlərlə təmin edilmələrinə dair yalan vədlər verilərək vətəndaşların aldadılmasına yönəlmiş qanun pozuntuları hallarına da rast gəlinir ki, belə hallara qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilməkdədir.**

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş əməliyyat məlumatları ilə əlaqədar, müvafiq məhkəmə qərarları əsasında Gəncə və İsmayıllı şəhərlərində keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzindən kənar ali və orta-ixtisas müəssisələrini qəbul olmaq hüququ verən, habelə bu növ təhsil müəssisələrində təhsilin tamamlanmasını təsdiq edən rəsmi sənədlərin saxtalaşdırması, qanunsuz hazırlaması və satışı ilə məşğul olan bir qrup Azərbaycan vətəndaşının qanunsuz əməlləri ifşa olunub.

Belə ki, həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri ilə Gəncə Dövlət Universitetinin Fiziki tərbiyə və çağırışa qədərki mülki müdafiə kafedrasının müdiri vəzifəsində işləmiş Məmmədov Ələddin Hətəm oğlu və həmin kafedrada laborant vəzifəsində işləyən Qasımov Elmir Müzadil oğlunun Gəncə Dövlət Universitetində xidməti otaqlarında aparılmış axtarış zamanı 37 nəfər ayrı-ayrı şəxslərin adlarına müxtəlif ali və orta-texniki təhsil müəssisələrinin diplomları və sair sənədləri aşkar olunaraq götürülüb.

Bundan başqa, "İsmayıllı Olimpiya İdman Kompleksi" MMC-nin sabiq direktoru Hümbətov Tofiq Mürşüd oğlunun xidməti otağında, sonuncuya məxsus şəxsi avtomobilində axtarış zamanı 62 ayrı-ayrı şəxslərin adlarına müxtəlif ali və orta-texniki təhsil müəssisələrinin diplomları, vətəndaşların şəxsiyyət vəsiqələri, onların surətləri, bankomat kartları və sair sənədlər aşkar olunaraq götürülüb.

Eyni zamanda əməliyyat-istintaq qrupu tərəfindən sözügedən cinayətkar qrupun üzvü olan İmamquliyev Azər Vaqif oğlunun Gəncə şəhərində yaşadığı ünvanda aparılmış axtarış zamanı Təhsil Nazirliyi, Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi, Gəncə, Qazax və Naxçıvan filialları, həmin İnstitutun Ümumi şöbəsi, Gəncə şəhəri Təsərrüfat Hesablı Məişət Xidməti Kolleci, Göyçay Dövlət İdarəetmə və Texnalogiyalar kolleci, Azərbaycan Kooperasiya Universiteti, Mingəçevir şəhər kadr hazırlığı və ixtisasartırma məktəbi, Gəncə Elm-Təhsil Mərkəzi Yeyinti Sənaye İnstitutu, Azərbaycan Kənd Təsərrüfatı Akademiyası, o cümlədən M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyat İnstitutunun saxta möhürləri aşkar edilərək götürülüb.

Həmçinin, həmin ünvanda axtarış zamanı aşkar edilən saxta sənədlərin hazırlanması zamanı istifadə olunan rəngli printer, möhürlərin hazırlanması üçün xüsusi çanta, 1 ədəd "LG" markalı monitor, 1 ədəd "Raimb" markalı prosessor, 5 ədəd ali təhsil haqqında diplomun üzlükləri, 2 ədəd orta və texniki təhsil haqqında diplomun üzlükləri, 2 ədəd yaddaş daşıyıcısı və sənədlərin saxtalaşdırılmasında istifadə edilən digər alət və vasitələr götürülüb.

Baş İdarə tərəfindən qeyd edilən ünvanlarda aparılmış axtarışlar nəticəsində toplanmış ilkin sübutlarla, habelə aparılmış ayrı-ayrı istintaq hərəkətləri ilə müəyyən edilmişdir ki, Məmmədov Ələddin Hətəm oğlu Gəncə Dövlət Universitetinin kafedra müdiri vəzifəsində işləyərkən həmin kafedranın laborantı Qasımov Elmir Müzadil oğlu, tanışları İmamquliyev Azər Vaqif oğlu, "İsmayıllı Olimpiya İdman Kompleksi" MMC-nin sabiq direktoru Hümbətov Tofiq Mürşüd oğlu və istintaqla şəxsiyyətləri araşdırılmaqda olan başqa şəxslərlə sabit cinayətkar qrup yaradaraq aralarında cinayətkar məqsədlərinə uyğun ciddi vəzifə bölgüsü aparmışlar.

Cinayətkar qrup üzvləri arasında aparılmış bölgü ilə Ələddin Məmmədov ayrı-ayrı şəxslərin adlarına ali və orta-ixtisas təhsil müəssisələrində təhsil almalarını təsdiq edən saxta diplomların hazırlanmasının sifariş verilməsi və bunun müqabilində pul vəsaitlərinin qəbul edilməklə, dəstə üzvləri arasında bölüşdürülməsi, Tofiq Hümbətov ali və orta-ixtisas təhsil müəssisələrinə qəbul olunmaq və ya bu növ təhsil müəssisələrinin diplomlarını almaq niyyətində olan şəxslərin axtarılıb tapılması, onlardan pul vəsaitlərinin yığılması, Azər İmamquliyev və Elmir Qasımov hüquq verən rəsmi sənədləri istifadə etmək məqsədi ilə qanunsuz hazırlanması, hazırlanmış saxta sənədlərin sifarişçilərə çatdırılması funksiyalarını icra etmiş, habelə cinayətkar qrupun digər üzvləri də oxşar funksiyaları yerinə yetirərək bu üsulla ayrı-ayrı şəxsləri aldatma və onların etibarından sui-istifadə etməklə əmlaklarını ələ keçiriblər.

Belə ki, aparılmış istintaqla müəyyən edilib ki, Ələddin Məmmədovun rəhbərlik etdiyi cinayətkar qrupun üzvləri rəsmi sənəd olan Azərbaycan Müəllimlər İnstitutunun Gəncə və Qazax filiallarında təhsilə dair diplomların məzmununa bilə-bilə yalan məlumatlar daxil edib qanunsuz hazırlayaraq həqiqi diplom kimi təqdim etməklə, Biləsuvar rayon sakini Vidadi Babayevin yaxın qohumu Hikmət Babayevin həmin ali təhsil müəssisələrindən birinə tələbə kimi qəbul edilməsinə yalandan vəd verərək buna görə Vidadi Babayevə məxsus 5 min 850 manat məbləğində pul vəsaitini ələ keçiriblər.

Həmçinin, qeyd edilən mütəşəkkil dəstə üzvləri eyni niyyətlə Bakı şəhər sakini Mövlud Cəfərovun yaxın qohumu Şahin Cəfərlinin Xarkov Mülki Müdafiə Akademiyasının diplomunu Azərbaycan Respublikasının Təhsil Nazirliyində təsdiq etdirməklə buna dair rəsmi şəhadətnamənin alınmasına köməklik göstərilməsinə yalandan vəd verərək, Şahin Cəfərlinin adına olan diplomun Təhsil Nazirliyində təsdiq olunmasına dair məzmununa bilə-bilə yalan məlumatlar daxil etdikləri rəsmi sənəd olan saxta şəhadətnaməni qanunsuz hazırlayıb Mövlud Cəfərova təqdim etmişdir. Bundan sonra Şahin Cəfərlinin Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə idarəsində işə düzəldəcəklərinə inandıraraq bütün bu qanunsuz xidmətləri qarşılığında Mövlud Cəfərova məxsus 15 min manat məbləğində pul vəsaitini dələduzluq yolu ilə ələ keçirib öz aralarında bölüblər.

Aparılmış istintaqla həmçinin müəyyən edilmişdir ki, sözügedən mütəşəkkil dəstə üzvləri cinayətkar niyyətlərinə uyğun olaraq Tərtər rayon sakini Müseyib Aslanovun yaxın qohumu Qaratel Aslanzadənin Gəncə Dövlət Universitetinə ali təhsil alması üçün tələbə qismində qəbul olunmasında qəbul etdirəcəklərini yalandan vəd verərək, Müseyib Aslanova məxsus 3 min manat məbləğində pul vəsaitini dələduzluq yolu ilə ələ keçirib öz aralarında bölüblər.

Mütəşəkkil dəstə halında etdikləri həmin qanunsuz hərəkətləri ilə qeyd edilən şəxslərin rəsmi sənədləri saxtalaşdırmaqla vətəndaşlara qarşı dələduzluq etmələrinə əsaslı şübhələr müəyyən olunduğundan Ələddin Məmmədov, Azər İmamquliyev, Elmir Qasımov və Tofiq Hümbətov təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara Cinayət Məcəlləsinin 178.3.1 (mütəşəkkil dəstə tərəfindən törədildikdə dələduzluq), 32.4, 312.2 (vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə və ya təkrar rüşvət verməyə təhrik etmə), 320.1 (hüquq verən və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma) və 320.2-ci (Cinayət Məcəlləsinin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələrində nəzərdə tutulan ittiham elan edilmiş və barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.



Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və həmin şəxslərin qanuni mənafelərini pozmuş olduqları vətəndaşların dairəsinin tam müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən ölkə vətəndaşları və sahibkarlara müraciət edərək 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə məlumat vermələrini xahiş edir.

Eyni zamanda, bu kimi cinayətlərin törədilməsinə səbəb və şərait yaradan halların müəyyən edilərək aradan qaldırılması və bu sahədə baş verən neqativ halların qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi istiqamətində zəruri hərəkətlərin davam etdirilməsi təmin ediləcək.

# Camaata nərə əvəzinə naqqa balığı yedizdirən restoranlara niyə cinayət işi açılmır?

***Eyyub Hüseynov:*** *"Cinayət Məcəlləsinin müvafiq bəndinə görə, hüquqi şəxs istehlakçını aldatmaqda davam etsə, onu iki ilə qədər həbs cəzası gözləyir"*

**Son zamanlar bəzi şadlıq evləri və restoranların müştərini aldatması mənfi bir hal kimi diqqəti cəlb edir. Aidiyyəti qurumların restoran və şadlıq evlərində həyata keçirdikləri monitorinqlər zamanı bu istiqamətdə bir sıra problemlər üzə çıxıb. Bu gün bəzi restoran və şadlıq evləri müştərilərə təkcə istifadə müddəti keçmiş köhnə qidalar təqdim etmir, onlar başqa yollarla da müştərini aldadırlar.**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) qida təhlükəsizliyinin təmin edilməsi, həmçinin, istehlakçı hüquqlarının qorunması istiqamətində tədbirlər həyata keçirir. AQTA-nın yaydığı məlumata görə, son zamanlar agentlik tərəfindən ictimai iaşə müəssisələrində aparılan monitorinqlər zamanı aşkar olunmuş bir sıra nöqsanlarla yanaşı, istehlakçı hüquqlarının pozulması hallarına sıx şəkildə rast gəlinir. Qeyd edilənə görə, əhaliyə xidmət göstərən ictimai iaşə müəssisələri tərəfindən müştərilərə təqdim edilən balıq və balıq məhsullarının adı, habelə keyfiyyəti ilə bağlı istehlakçıların aldadılması halları aşkar olunmaqdadır.

"Həyata keçirilən monitorinqlər zamanı bir sıra ictimai iaşə müəssisələrində və şadlıq saraylarında əhaliyə nərə balığı adı altında keyfiyyəti və qiyməti aşağı olan, bəzi xüsusiyyətlərinə görə nərə balığına oxşayan naqqa balığının təqdim edildiyi aşkar olunub. Qeyd edək ki, naqqa balığı emal olunduqdan, yəni baş və quyruq hissələri kəsildikdən və təmizləndikdən, həmçinin, bişirildikdən sonra nərəkimilərə aid balıqlara xas görünüşü olduğu üçün, onları nərə balığından fərqləndirmək bir qədər çətinləşir. Naqqa balığının bu xüsusiyyətindən istifadə edən işbazlar istehlakçıları aldatmağa cəhd göstərirlər.

Məlum olduğu kimi, bu balıq növlərini fərqləndirmək üçün aşağıdakılara diqqət edilməlidir. Belə ki, nərə balığının bədən uzunu boyunca 5 uzanan özünəməxsus tikanabənzər sümüklü pulcuqları var və onlar təmizlənsə belə, dəridə kobud şəkildə izləri qalır. Lakin naqqa balığının dərisi, demək olar ki, təmizdir, hamar səthdə heç bir çıxıntı və ya pulcuğa rast gəlinmir.

Əgər balığın dərisi tamamilə təmizlənib, sadəcə, əzələ hissəsi qalıbsa, nərə balığında əzələlərarası növbəli şəkildə sarı yağ kütləsi olduğu halda, naqqa balığında bu, ağ rəngdədir. Bu göstərici, əsasən, daha iri kütləli növlərə aiddir. Tam bişmiş və heç bir halda fərqləndirici xüsusiyyət müşahidə olunmadıqda isə təqdim olunan məhsulu dadı ilə də fərqləndirmək mümkündür. Çünki naqqa balığı nərə balığına nisbətən daha spesifik dada malikdir".

AQTA əhaliyə müraciət edərək bildirir ki, ictimai nəzarəti həyata keçirərək, ictimai iaşə müəssisələrində, həmçinin, ailə şənlikləri ilə bağlı şadlıq saraylarında təqdim edilən balıq məhsullarının təhlükəsizliyini və mənşəyini təsdiq edən sənədləri tələb etsinlər.

AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi istiqamətində ardıcıl tədbirlərini bundan sonra da davam etdirəcək və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısını qətiyyətlə alacaq.



*"Çox təəssüflər olsun ki, Qida Təhlükəsizliyi Agentliyi ad çəkməməklə, məsələləri gizlətməklə öz gördüyü işin nəticəsini, səviyyəsini aşağı salır"*

Restoran və şadlıq saraylarının müştəriləri bu şəkildə aldatmasında ciddi cinayət tərkibi olduğunu deyən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, AQTA belə halları aşkarlayarkən bunun mövcud olduğu şadlıq sarayları və restoranların adlarını açıq bildirməlidir: "Bəzi restoran və şadlıq evlərində naqqa balığını nərə balığı kimi müştəriyə təklif edilməsi çox ciddi qanun pozuntusudur. Burada söhbət restoran və şadlıq sarayları sahibləri tərəfindən müştərilərin aldadılmasından gedir. Cinayət Məcəlləsində 300-cü maddə var, bu maddə istehlakçıların aldadılması ilə bağlıdır. Həmin maddədə hüquqi şəxslərin 400 manata qədər cərimə edilməsi nəzərdə tutulur. Cinayət Məcəlləsinin müvafiq bəndinə görə, hüquqi şəxs istehlakçını aldatmaqda davam etsə, onu iki ilə qədər həbs cəzası gözləyir. Yəni birinci dəfə o, cərimə ödəməklə canını qurtara bilər, amma müştərini dəfələrlə aldatsa və bu müəyyən edilsə, o həbs edilməlidir. Lakin Qida Təhlükəsizliyi Agentliyi qidanın təhlükəsizliyinə nəzarət edir və naqqa balığı da təhlükəli qida deyil. Sadəcə, burada istehlakçının aldadılması məsələsi var. Ümumiyyətlə, Qida Təhlükəsizliyi Agentliyi bu halı aşkarladığı restoranın, şadlıq evlərinin adını açıq bildirməlidir. Yəni hansı restoranda bu hal baş verirsə, müştəri ora getməsin. Müştərini aldadan bu restoran və şadlıq saraylarının adı çəkilməlidir.

AQTA nədən çəkinir, niyə müştəriləri aldadan restoran və şadlıq evlərinin adını açıqlamır? Bu bizi çox narahat edir. Ümumi səviyyədə hamı qeybət edir. Bu qurum da bu kimi məsələləri qeybət şəklində təqdim edir. Agentliyin gördüyü işlər yaxşıdır, müsbətdir, amma camaata konkret ad, ünvan lazımdır. AQTA o restoran və şadlıq evlərinin adlarını açıqlasın ki, istehlakçılar da həmin iaşə məkanlarını boykot etsinlər. Bizim qurum da onlara dəstək olardı. Çox təəssüflər olsun ki, Qida Təhlükəsizliyi Agentliyi ad çəkməməklə, məsələləri gizlətməklə öz gördüyü işin nəticəsini, səviyyəsini aşağı salır. O, əhali arasında özü haqqında qeybət danışan bir qurum imici yaradır. Bu səhvdir". E.Hüseynov qeyd etdi ki, adlar açıqlansa, ünvanlar göstərilsə, görülən mübarizə tədbirlərinin də effekti olar.

***İradə SARIYEVA***

№ 191 (4089) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

29 OKTYABR 2019-cu il

www.baki-xeber.com

## Qara dәniz sahillәrindә qәdim xәzinә tapıldı



**Bolqar arxeoloqlar Qara dәniz sahillәrindә V әsrә aid xәzinә tapıb.**

"Seanews.az" bildirir ki, qazıntılar Devnya şәhәrindә aparılıb. Arxeoloqlar, ümumilikdә, 16 qızıl vә 20-dәn çox bürünc sikkә tapıb. Onlardan daha dәyәrlilәri üzәrindә imperator II Feodosinin vә imperator III Valentianın şәkillәri әks olunan sikkәlәrdir. Varnanın diyarşünaslıq muzeyinin eksperti Xristo Kuzovun sözlәrinә görә, xәzinәnin hunların qәdim Markianopol şәhәrinә hücumu zamanı gizlәdilmәsi ehtimalı var.

## Elan

Ocaqova Kәmalә Rasim qızına mәxsus, Bakı şәhәri, Sәbail rayonu, Əziz Əliyev küçәsi 11-dә yerlәşәn qeyri-yaşayış sahәsinin çıxarışı (№0087090) itdiyi üçün etibarsız sayılır.

Şәki şәhәr sakini Xammәdov Asim Mәsim oğlunun adına verilmiş Qarabağ müharibәsi veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Mirzәyev Mais Akif oğlunun adına verilmiş AZEN№15001211 seriyalı şәxsiyyәt vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Əlizadә İsfәndiyar Fuad oğluna Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Hәsәnliyev Fuad Eldar oğluna Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfinfәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Mәmmәdova Fidan Rüstәm qızına Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Allahverdiyeva Mahirә Abdulovnaya mәxsus, Bakı şәhәri, Xәzәr rayonu, Mәrdәkan qәsәbәsindә yerlәşәn 244 b saylı bağ sahәsinә 22.04.1991-ci il tarixdә verilmiş № 244 b/s order itdiyi üçün etibarsız sayılır.

Lәtifov Lәtif Hüseynbala oğlunun adına verilmiş JN 151 A nömrәli, kod: 30214068 torpağın mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Mәmmәdov Ədail Əlisahib oğlunun adına, Cәlilabad rayonu, Göytәpә şәhәrindә yerlәşәn torpaq sahәsinә verilmiş mülkiyyәt hüququna dair dövlәt aktı (JN - 915 kod 80602004) itdiyi üçün etibarsız sayılır.

Abdullayev Elvin Mübariz oğlunun adına, Azәrbaycan Respublikası Müdafiә Nazirliyi tәrәfindәn verilmiş şәxsi vәsiqә (MN 0048291) itdiyi üçün etibarsız sayılır.

Mәmmәdhüseynov Fәxrәddin Hacıbaba oğlunun adına mәxsus, Bakı şәhәri, Suraxanı rayonu, Yeni Günәşli qәsәbәsi, "D" Y/S ev 16, mәnzil 43 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Əbilov Ayxan Mehman oğluna Azәrbaycan Dövlәt Bәdәn Tәrbiyәsi vә İdman Akademiyası tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Əhmәdov Eldәniz Yaqub oğluna mәxsus, Bakı şәhәri, Badamdar qәsәbәsi (köhnә adı: 7-ci Badamdar qәsәbәsi), Seymur Mәmmәdov küçәsi, ev 13, mәnzil 6 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

## "Nar" müştәrilәrin ehtiyaclarına cavab verәn mәhsullar tәqdim etmәkdәdir

**"Nar"müştәrilәrin ehtiyac vә gözlәntilәrini qarşılamaqla onların mәmnuniyyәtinin artmasına davamlı investisiya yatırır.**

Mobil operator hәr zaman müxtәlif müştәri qruplarının konkret ehtiyaclarına cavab verәn mәhsullar tәqdim etmәkdәdir". Bunu "Azerfon"un baş icraçı direktoru Qunnar Panke "Business Time" jurnalına geniş müsahibәsindә deyib. Onun sözlәrinә görә, "Nar"ın abunәçilәrin seçiminә çevrilmәsinin әsas sәbәbi müştәriyönümlü mәhsullardır: "Bizim xidmәtlәr hәr bir müştәrinin ehtiyacları әsasında,onları mәmnun etmәk mәqsәdilә hazırlanır. Müştәrilәrimizin bu vә ya digәr mәhsul vә xidmәtlәrimizә olan tәlәbatını öyrәnmәklә vә araşdırmaqla, demәk olar ki, hәr bir müştәri qrupu üçün fәrdi yanaşma tapa bilmişik. Onlara münasib hәllәr arasında seçim etmәyә imkan veririk".

"Nar"ın müştәri mәmnuniyyәtinin artırılmasına davamlı investisiya qoyduğunu deyәn Q.Panke әlavә edib ki, ilk növbәdә, xәrclәrin tam şәffaflığını tәmin etmәklә rahat vә istifadәsi asan mәhsullar tәqdim edilir: "İkincisi, rәqәmsallaşma bir çox müştәrilәr üçün vacibdir. Lakin biz әnәnәvi, fiziki kanallar vasitәsilә xidmәt olunmağı üstün tutan müştәrilәrin ehtiyaclarını da diqqәtdәn kәnarda saxlamırıq. Üçüncü şüarımız isә mәhsullarımızı qiymәt baxımından münasib saxlamaq üçün xәrclәri minimallaşdırmaqdır. Bizim üçün ölkәnin әn çox müştәriyönümlü mobil operatoru olmaq budur". Baş icraçı direktor әlavә edib ki, müştәrilәr mobil operatordan keyfiyyәtli şәbәkә xidmәti gözlәyir vә hazırda "Nar"ın tәklif etdiyi geniş әhatәlilik vә şәbәkә Qәrb ölkәlәri sәviyyәsindәdir.

Mobil operatorun qarşıda duran strategiyası barәdә dә danışan Q.Panke qeyd edib ki, gәlәcәkdә diqqәt yönәldilәcәk sahәlәrdәn biri müştәrilәr üçün tәqdim olunan xidmәt vә hәllәrin daha da tәkmillәşdirilmәsidir. Bundan başqa, mәmnun olan vә doğru yerdә oldukları әmin olan müştәri bazası hesabına tәbii artıma nail olmaqdır. Qeyd edәk ki, "Azerfon"un baş icraçı direktoru Qunnar Pankenin "Business Time" jurnalına geniş müsahibәsini aşağıdakı keçid vasitәsilә oxumaq olar: http://fins.az/musahibe/1001411/nar-musterilerin-ehtiyaclarina-cavab-veren-mehsullar-teqdim-etmekdedir.html

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. "Nar" şәbәkәsi hazırda ölkә әhalisinin 97,5 %-ni әhatә edir vә 8500-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.

## TƏBRİK!



Tuncay 8 yaşında  
İgid, qocaq baladır.  
Vәtәnin әsgәridir,  
O, alınmaz qaladır.

Ad günüdür balamın,  
Taleyi gözәl olsun...  
Allah qorusun onu,  
Ömrü günәşlә dolsun!

Doğum günün mübarәk,  
Allah sәni yarıtsın.  
Anan sevinsin hәr gün,  
Qәmi-kәdәri atsın!

Bu gün Tuncay balanın ad günüdür. 8 yaşını qeyd edәn Tuncayı ad günü münasibәtilә anası Nuranә, qardaşı Ramazan, doğmaları ürәkdәn tәbrik edir, ona can sağlığı, uzun ömür, sәadәt dolu günlәr arzu edirlәr. Əziz balamız, doğum günün mübarәk. Allah sәni bәxtәvәr elәsin!  
Bu tәbrikә Qafarovlar ailәsi dә qoşulur.





**Qoç** - Tәbii zәka vә anadangәlmә intellektual qabiliyyәtlәr bu gün işinizә yararlı olmayacaq. Rahatlıqla xatirәlәrә dala bilәrsiniz. Maliyyә vә işgüzar planlarınız barәdә inandığınız, etibar etdiyiniz şәxslәrdәn savayı kimsәyә danışmayın.



**Buğa** - Başqalarının problemlәrinin hәllinә bu gün xeyli vaxt sәrf etmәli olacaqsınız. Sizin üçün xüsusi әhәmiyyәt kәsb etmәyәn mәsәlәlәr dә sәy vә zәhmәt istәyәcәk. Böyük ümid bәslәdiyiniz layihәni reallaşdırmağa başlayın.



**Əkizlәr** - Bacarıq vә imkanlarınızdan artıq işә başlamaq istәsәniz, uğursuzluğa düçar olacaqsınız. Ağır problem varsa, onu hәll etmәk üçün dostlar vә yaxınlarınızın yardımlarına ehtiyac yarana bilәr.



**Xәrçәng** - Yeniliklәrә vә dәyişikliklәrә hazırsınızsa, gün sizin üçün uğurlu ola bilәr. Uzaqdan yaxşı xәbәrlәr vә ya tәklif gәlә bilәr. İşdә әlavә tapşırıq istisna olunmur. Bu, sizin üçün sәrfәli әlavә gәlir mәnbәyi dә ola bilәr.



**Şir** - Çalışmaq vә fәaliyyәt göstәrmәk üçün әla gündür. Gәrgin durumlara rәğmәn istәnilәn sahәdә mәhsuldar çalışaraq әn yaxşı mәziyyәtlәrinizi nümayiş etdirә bilәrsiniz. Eqoizm, tәşәxxüs vә özünütәrifә aludә olmayın.



**Qız** - Mümkün olmayan heç bir iş vә ya çatılması irreal hәdәf yoxdur. İstәdiyinizi әldә etmәk üçün sәylә çalışın. Ailә üzvlәri vә qohumlarla münasibәtlәrdә irәlilәyiş, yaxşılığa doğru dәyişikliklәr istisna deyil.



**Tәrәzi** - Günün ilk yarısı әn müxtәlif işlәr üçün münasibdir. Bu zaman planlarınızı reallaşdırmaqla yanaşı, parlaq ideyanızı da hәyata keçirә bilәrsiniz. Yaxın adamların vә iş yoldaşlarının ünvanına sәrt tәnqidlәrdәn çәkinin.



**Əqrәb** - Bu gün yaxın әtrafınızın kömәyindәn faydalanmaq ehtyiacı yaransa belә, tәkbaşına fәaliyyәt göstәrmәyә çalışacaqsınız. Belә etmәyin, sәhv buraxmayın. Mәnasız işlәrә vә mәntiqsiz yönlәrә izafi qüvvә sәrf etmәyin.



**Oxatan** - Yeni tanışlıqlar, rәğbәt bәslәdiyiniz insanlarla ünsiyyәt üçün әlverişli gündür. İlk dәfә gördüyünüz insanla asanlıqla dil tapacaqsınız. Qohumlara baş çәkmәk, ailәnin qayğılarını çözmәk üçün yararlı gündür.



**Oğlaq** - Gün әrzindә tәmkinli vә sәbrli davranmaq çәtin olsa da, bunu edin. Yaxın әtrafınızdakı insanlara soyuqqanlı olduğunuzu nә qәdәr çox nümayiş etdirmәyә çalışsanız, onlar sizi bir o qәdәr hirslәndirmәyә, qıcıqlandırmağa sәy edәcәklәr.



**Dolça** - Başqalarının problemlәrinә sakit vә rәvan yanaşsanız, bu gün sakit keçәcәk. Fәqәt, başqaları üçün uğur vә rәvanlıq istәsәniz, sizi gәrgin mübarizә vә çәtinliklәr gözlәyir.



**Balıqlar** - Maddi problemlәrin hәlli ilә mәşğul olmağa tәnbәllik etmәyin: әtrafdakı insanlarla münasibәtiniz әhәmiyyәtli dәrәcәdә belә davranışdan asılıdır. Maliyyә işlәrini qaydaya salmaq üçün maksimum sәy göstәrin.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*



## Yeni hәşәrat növü tapılıb

**Krım yarımadasında yeni növ hәşәrat aşkar edilib.**

"Trend" xәbәr verir ki, yeni növ pulcuqqanadlılar dәstәsinә aid edilib. "Negotithia efetovi" adlı verilәn hәşәrat Krım yarımadası üçün endemik növ hesab olunur. Hәşәratın adı Krım Dövlәt Universitetinin professoru Konstantin Efetovun şәrәfinә verilib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.